Baloğlan Cəlil İdrisi

QÜRBƏTİN DADI

BALOĞLAN CƏLİL İDRİSİ

QÜRBƏTİN DADI

«Vektor» Beynəlxalq Nəşrlər Evi
Bakı/Azərbaycan - 2018

Redaktor və ön sözün müəllifi:
Prof. Dr. Elçin İsgəndərzadə

Texniki redaktor:
Şükufə Əhmədli

Kitab 2016-cı ildə müəllifin «VEKTOR» Beynəlxalq Elmlər Akademiyasının Şahmar ƏKBƏRZADƏ adına Beynəlxalq Ədəbiyyat mükafatına layiq görülməsi münasibətilə «VEKTOR» BEA tərəfindən nəşr edilir.

Baloğlan Cəlil İdrisi "Qürbətin dadı"
«Vektor» Beynəlxalq Nəşrlər Evi.
Bakı, 2018. 148 səh.

© «VEKTOR» BEYNƏLXALQ ELMLƏR AKADEMİYASI, 2018

BƏNÖVŞƏ QOXULU QÜRBƏT ŞEİRLƏRİ

Müasir Azərbaycan poeziyasında özünəməxsus istedadı, öz üslubu, fəlsəfi dəsti-xətti və ali poetik təfəkkürü ilə seçilən görkəmli şairlərimizdən biri Baloğlan Cəlildir. Uzun illərdir ki, poeziyamızda öz sözünü demiş, imzasını əbədiləşdirmiş və geniş oxucu auidotoriyasının böyük sevgisini qazanmış Baloğlan bəy şairlərimizin "az yazıb, təmiz yazan" zümrəsinə aiddir.

Mən Baloğlan Cəlilin şeirlərini özündən çox-çox əvvəllər tanımışam və bu şeirlərin ürəkləri riqqətə gətirən, insanın ruhunu ovsunlayaraq bəyazlaşdıran qeyri-adi sirrinə və sehrinə məftun olmuşam.

Onun Ana həsrətinə anasızlıq yanğısı ilə yazdığı tükürpədən şeirlərini oxuduqca anasızlığın böyük faciə və məşəqqət olmasını bütün təfərrüatı ilə içimdən keçirərək başımı anamın bir dəri-bir sümük qalmış sinəsinə sıxıb, qollarımla bərk-bərk qucmuş və onu ədəbilik ağuşumda saxlamaq üçün fələkdən qorumağa dəridən-qabıqdan çıxmışam.

Baloğlan Cəlilin Vətən həsrəti ilə qələmə aldığı, mürəkkəb əvəzinə ürəyinin qanı ilə yazmış olduğu qürbət qoxulu şeirlərini oxuduqca Şuşasız 25 ildən artıqdır ki, Vətəndə qürbətin cəhənnəm əzabında qovrulmama bir az "təskinlik" məlhəmi tapmışam.

Baloğlan Cəlilin hansı yaşda olmasından asılı olmayaraq sevgi şeirlərini oxuduqca oxucu onun sevgi təxəyyülünün yaşanan, əfsanələşdirilən və mifləşdirilən bütün sevgi örnəklərinin fövqündə qəbullanması ilə yanaşı indiyədək belə bir sevgi planetinə düşməməsinə kədərli təəssüf hissi keçirməklə bərabər içində heç olmasa bu sevgi

planetinin "qara çəkməsi" ola bilməsi xülyasının cığırına düşür.

Buyurun, aşağıdakı üç sitatı oxuyun və nə qədər haqlı olduğuma şahid olun:

Məni uzaqlara aparan mənim
Qara buludlarda bir Gün kimidi.
Vətənsiz bir ömrə ömür demərəm,
Qürbət də ömürlük sürgün kimidi.

"Ömürlük sürgün"

Atamdan anamı soruşan kimi,
İçindən çat verib sınardı atam.
Ağarmış qaşları tüstülənərdi,
Dönüb gizli gizli yanardı atam.

"Yelləncək"

Yoldan keçənlərin boynunu qıran,
Çiçəkli köynəyin cənnət bağıdı.
Qışın at çapdığı bu qarlı gündə,
Qara çəkmələrin bahar çağıdı.

"Qara çəkmələr"

Şair Baloğlan Cəlilin istəyir anasızlığa, vətənsizliyə, sevgisizliyə, ədalətsizliyə yazdığı şeirlər olsun, istəyir hansı mövzunu qələmə alır-alsın onun nəinki bütöv şeirində, nəinki bəndlərində, nəinki misralarında, hətta hər sözlərində belə mən həmişə bir bənövşə zərifliyi, bir bənövşə kövrəkliyi, bir bənövşə boynu-büküklüyü aurasına kövrəlmişəm.

Baloğlan Cəlil mənim üçün həm də bənövşələrin ən mübhəm bir şairidi. Onun bənövşələrə həsr etdiyi çoxsaylı şeirlərindən örnək olaraq bir bəndi də diqqətinizə çatdırmaq istəyirəm:

Onu dərmək günah, dərməmək günah,
Hər yaz yanağını görməmək günah...
Dizinə baş qoyub ölməmək günah,
Batım günahına qız bənövşənin.

"Bənövşəni"

Mən Baloğlan Cəlilin şeirləri ilə uzun illər könül sirdaşı oldum. İki il öncə isə təsisçisi olduğum Şahmar Əkbərzadə adına Beynəlxalq Ədəbiyyat mükafatı vəsiləsilə əziz qardaşım Qulu Ağsəs məni Baloğlan bəylə tanış etdi. Tanışlığımızın ilk anından etibarən şeirləri ilə uzun illər könül sirdaşı olduğum şairlə həyatda qardaş oldum. Qardaş demişkən yadıma Baloğlanın böyük qardaşı İdris müəllimə olan qeyri-adi və fantastik qardaşlıq münasibətinin bənzərsizliyi düşdü:

Dişini dişinə sıxan kişilər,
Dərdi ürəyinə yığan kişilər,
İçində ağlayır, içində gülür,
Çörəkçün yollara çıxan kişilər.

"Kişilər baş alib gedir bu kənddən"

Ən sonda günümüzün gerçək şairlərindən biri, əziz dostum və qardaşım Baloğlan bəyin "Qürbətin dadı" kitabının naşiri, redaktoru və ön söz müəllifi olmaqla özümü çox xoşbəxt hiss edir və yüzdə yüz inanıram ki, bu kitabı oxuyan hər bir oxucu ondan mütləq xoşbəxtlik və şükranlıq duyğuları ilə ayrılacaqdır.

Prof. Dr. Elçin İSGƏNDƏRZADƏ
Prezident təqaüdçüsü, Əməkdar müəllim,
Avropanın Fəxri Alimi, Mədəniyyət Səfiri

UNUDULMAZ MƏKTUB

Gəl bu gün sənlə biz uşaq olaq,
Tutaq əllərindən keçən günlərin.
Dəftər varağını yenə dörd büküb,
Sənə unudulmaz məktub göndərim.

Birdən qaçıb gedək çay qırağına
Oynaşaq qumların üzərində biz
İsti yanaqların qızarıb yansın,
Yerdə öpüşəndə ləpirlərimiz

Sonra o qumları sığallayaraq,
Bir ürək şəklini cız barmağınla.
Süzüb o ürəyi sən bədahətən,
Altından adımı yaz barmağınla.

QARA ÇƏKMƏLƏR

Qar üstə yeriyən ağ bir çiçəksən,
Göyərçin əllərin qardan da ağdı.
Məxmər dizlərini oxşayıb öpən,
Qara çəkmələrin ağarıb baxdı.

Sən qarın üstündə dümağ bir çiçək,
Qara çəkmələrin-qara güldanın.
Qürbəti Vətənə yaxınlaşdıran,
Çiçək dodağından qara gül damır.

Yoldan keçənlərin boynunu qıran,
Çiçəkli köynəyin cənnət bağıdı.
Qışın at çapdığı bu qarlı gündə,
Qara çəkmələrin bahar çağıdı.

Qar yağır, yenə də ağarır dünya,
Ağaran yaxanda qar çiçəkləyir.
Enir göy üzündən dağçılar kimi,
Əriyir köksündə qar çiçəkləri.

Bir dəstə gül kimi alıb aparır,
Səni öz ovcuna hara çəkmələr?!
Nələr çəkdiyini bir Allah bilir,
Hara getdiyini qara çəkmələr...

HEYVA AĞACI

Bu da bizim həyət-ata ocağı..
Atadan qalma bir ovuc torpaq
Torpağın üstündə tikdiyim ev
Bir də min il əvvəl
Əkdiyim ağac-heyva ağacı,
Biraz atama bənzəyir,
Biraz da mənə.
Qaradinməzlikdə elə atamdı,
Dindirsən dinər,
Dindirməsən susar.
Yaxına gəlsən,
Zəhmi basar adamı.
Qorxulu nağıllar pıçıldaşar
Yarpaq-yarpaq atam kimi.
Biraz da mənə bənzəyir-dedim
O da elə mənim kimi
Havalı-havalı harasa boylanar,
Kimisə gəzər, arayar.
Daim elə yol çəkər gözləri
Könlündən gəlib keçənlər üçün.
Yaz gələndə şeir də deyər
Çiçək-çiçək
Hamıdan gizli,
Hamıdan uzaq,
Hamıdan yaxın
Yer üzündən
Göy üzünə.

KOR BAĞIRSAQ

Başqırdıstanın tanınmış cərrahı,
tibb elmləri doktoru, professor,
əziz dostum Mehdiyev Camal İsa oğluna

Uzaq, qürbət eldə haqladı məni,
Gözləri kor olmuş kor bağırsağım.
Qaldım qatarımdan qərib quş kimi.
Çırpına-çırpına bu xəzəl çağı.

Kövrəldi bir qədər ağac dostlarım,
Bacım buludların dərdi açıldı.
Boylandı payızın saz havasına,
Yaşıl yarpaqlarım sarıya çaldı.

Yaşıl yarpaqlarım sarıya çaldı,
Halıma anam tək ağladı payız.
Sarı yaylığını külək apardı,
Məni dərd çəkməyə saxladı payız.

Birdən gözlərimə göründü Allah ,
İpək qollarında ağ mələkləri...
Çəkib Göy üzündən endirdi yerə,
Ağrıdan çəkdiyim ah, mələkləri.

Göydə Tanrı dondu, Yerdə mələklər,
Kəsib .doğradılar o zəhri-marı.
Sinəmdə yığılıb qalan dualar,
Uçdu fişəng kimi göylərə sarı...

Gördüm işığında Vətən-qəbrimi,
Bir də haray çəkən o Ağrı dağı...
Bəs niyə dünyanın kəsilmir hələ.
Gözləri kor olmuş kor bağırsağı.

payız-2014, Ufa

XOŞUMA GƏLİR YASTIĞIM

Yastığımla yenə
Qol-boyun olub yatıram.
Çox xoşuma gəlir yastığım
Nə nəfəs alır,
Nə səs salır,
Nə xoruldayır
Nə də mənasız suallara
Tutub bezdirir məni.
Xoşuma gəlir yastığım,
Yazdığım bir-iki şeirimi də
əzbərdən bilir.
Bilir sənin kim olduğunu,
Həkim olduğunu bilir.
Bilir az yatdığımı,
Az yazdığımı bilir
Yağış olub üstünə yağdığımı bilir
Yastığım xoşuma gəlir.
Ondan mənə nə yaxınım,
Nə də məni bağrına basıb
Sıxanım var.
Xoşuma gəlir yastığım.

BU GECƏ

Bu gecə ömrümə bərabər gecə,
Bu gecə ağlımı başımdan edir.
Hələ toxunmamış gur saçlarına
Utancaq əllərim özündən gedir.

Bu gecə dalğalı dəniz kimiyəm,
Sahil yürüşünə bax dalğaların.
Vüsal havasına oyanıb qalxır
Sinəsi ağappaq qağayıların.

Soyunub doyunca üzə bilərsən,
Bənzədib bu gecə dənizə məni.
Havalan sinəmdə dalğalar kimi,
Oxşaya-oxşaya əzizlə məni.

Yumub gözlərini bu gecə kimi
Çiçək əllərinlə gəz əllərimi.
Açma gözlərini, açılar sabah,
Qoru bu gecənin gözəlliyini.

ÖMÜRLÜK SÜRGÜN

Səhərdən axşama qaçıram elə,
Deyirəm, mən də bir ağ günə çıxım.
Tutum ağ günlərin ağ əllərindən
Şükürlər içində sağ günə çıxım.

Mən özüm dünyada bir gün görmədim,
Gözlərim yol çəkdi o gündən ötrü.
Dedim, uşaqlara bir gün ağlayım,
Yaşadım, ölmədim o güldən ötrü.

Məni uzaqlara aparan mənim
Qara buludlarda bir Gün kimidi.
Vətənsiz bir ömrə ömür demərəm,
Qürbət də ömürlük sürgün kimidi.

Bu dünya-evimdə mənim tək hanı
Vətəndə sərsəri, qürbətdə qərib.?!
Könlünə dəydiyim o gözəl pəri
Yenə göz yaşını mesaj göndərib.

Səhərdən axşama qaçıram elə,
Gecələr yatıram dərdi-sərimlə.
Hər sabah Günəşin çəkib şəklini
Asıram evimdə öz əllərimlə.

YELLƏNCƏK

Atamdan anamı soruşan kimi,
İçindən çat verib sınardı atam.
Ağarmış qaşları tüstülənərdi,
Dönüb gizli gizli yanardı atam.

Sonra da çıxardı tut ağacına,
Mənə bir yelləncək ordan asardı.
Anamı aparan ilanı, sanki
Tutub boğazından dardan asardı.

Mən isə sevincək yelləncəyimdə
Göylərə baş vurub uçub gedərdim.
Qonşumuz Əhmədin gül anasına
Mahnı qoşa-qoşa acıq verərdim.

Yenə o yelləncək, yenə o ilan ...
Yenə göy üzünə uçub gedirəm.
Alıb qanadıma dünya dərdimi
İlanın ağzından keçib gedirəm.

Bir qürbət gözümü çəkib aparır,
Qəlbimdə ulayır Vətən yelləri.
Şirin vədələrin yelləncəyində
Bu gün də anasız Vətən yellənir

SABAHDAN GÜLƏCƏM

Məni bədbinlikdə günahlandıran
bir qələm dostuma

Mən sabahdan hər şeyə
Baxıb güləcəm.
Sübh günəşinin
Süd dodağına,
Vətən dağlarının çarpaz dağına,
Qara torpağına,
Qara bağına,
Azad diyarımın azadlığına,
Ağına, bozuna baxıb guləcəm.
Dişimi dişimə sıxıb güləcəm
Mən sabahdan hər şeyə
Baxıb güləcəm
Hər səhər bazara yollanan
Arvadların iri-iri zənbillərinə,
Keşniş, cəfəri bağlayan
əllərinə,
mışıl-mışıl yatan
ərlərinə baxıb güləcəm.
Çayxanada "şeş-beş"oynayan,
Toyxanada qanı qaynayan,
"Yanıq kərəmi"yə yanıb oynayan
Kişilikdən dəm vuran,
Dəm kişilərin ağaran dişlərinə
Belə-belə işlərinə

Baxıb güləcəm.
Nə dərd, nə qəm, nə kədər?
Hər şey hədər,
Kədər, sənə baxıb güləcəm.
Daha ürəyim nə qəm çəkər,
Nə də gözlərim nəm.
Rəhmətlik nənəm
Anamı yadına salıb
Arxamca baxıb güldüyü kimi
Mən də sabahdan hər şeyə,
hər şeyə baxıb güləcəm...

SƏN GETDİN

Gedişin qürub etmiş günəş
Sən getdin...
Saçların göy üzünü bürüdü
Göylər qara çuxasını geyindi,
Ulduzlar diksindi...
Bu qara çuxa,
Xeyrxah çuxa
Biraz nənəmin şalına bənzəyir
Biraz da sənin saçlarına.
Yatmayacağam bu gecəni,
Tutub ətəyindən yellənəcəyəm.
Sabaha qədər
Səni gözləyə-gözləyə
Ya nənəm şalının
Düyünçəsini açıb
Muştuluq verəcək mənə,
Ya da səni doğacaq
Bu qara çuxa.

EZOPA

Bir gün görməyən Ezop,
Ömründə gülməyən Ezop
Hamı kimi sevinib danışa bilməyən Ezop,
Xəbərin varmı, hamı sənin dilində,
danışır, dərdləşir?
Eh… səndən sonra tülkülər,
Atıb tülkülüyün daşını,
Həccə gedib hacı oldular.
Pələngdən, şirdən uca oldular.
Kefləri kökdür, damağları çağ,
Üzümün qorasını yeyirlər ancaq.
Arxalı-xaltalı itlər
Yenə üzür yağ içində…
Ötüb keçir qəm karvanı,
Qəm karvanı-toz içində.
Ehtiyac şaqqıldadır dişini,
Ulayır boz qurd-düz qurd.
Ulayır sən gəzdiyin Azadlıq kimi.
Quyruq bulayan itlər,
Yenə ətlidi, sədaqətli.
Yenə səxavətlidi bütlər.
Üzünə ağ olanları
Əhv edib bağışlayırlar.
Bayrağı-Ölüm-Azadlıq olan, Ezop
Xəbərin varmı, hamı sənin dilində,
danışır, dərdləşir.
Eh… Ezop, Ezop, Ezop…

XƏSTƏXANADA

Xəstəxana…
Qərib diyar… çöldə qar…
Qırx dərəcə şaxta var!
Belə qarda, şaxtada
elektrik telləri gecə-gündüz
yorulmadan
işıq daşıyır,
su boruları,su;
isti su,
soyuq su.
Evlər, yataqxanalar, aşxanalar,
İsti, işıqlı.
Xəstəxanalar isti, işıqlı.
Ağ xalatlı ağ mələklər
Adamın üzünə pulsuz gülür,
Sözlər deyirlər isti-isti
Gözləri, üzləri işıqlı,
yar-yaraşıqlı
İstisi öz yerində,
Tüstüsü öz yerində.
İstəyirsən kranı aç
sümüyün isinənə kimi,
"Oxqay" deyənə kimi çim
Özünçün!
Ya da elə-belə
İsti suyunun altında duşun
İsti-isti düşün.
Döşün həsrətdən qabarıb ensin.

İşığı, çörəyi, suyu.
İstisi olmayan Vətənin
Tüstüsü göynədib yaşartsın
gözlərini.
Və gəlib dursun qarşında
işığa həsrət körpələrin
işıqlı gözləri.
Bunları duya-duya
əl əli,
əl də üzü yuya-yuya
içimizdən,
köçümüzdən,
suçumuzdan xəbərsiz
yaşayırıq özümüzçün
köksümüzə döyə-döyə,
kökümüzü öyə-öyə.
Yaşayırıq özümüzçün,
gözümüzü döyə-döyə…

Ufa, 21 saylı
xəstəxana

ALLAH ÜZÜMÜZƏ BAXDI

Bu ucuz dünyanın,
Baha dünyanın,
Əjdaha-kaha dünyanın
Ac olan vaxtı-
Alça çiçəklərinin
Açılan vaxtı
Allah göydən üzümüzə baxdı,
Allah üzümüzə baxdı...
Baxtının açılan vaxtı
Anam adda bir ulduz axdı,
Yer üzündən
Göy üzünə...
O vaxtdan baxıram,
Bacılarımla birgə
Allahın üzümüzə
Baxan gözünə-
Ulduzlar diyarı
Göy üzünə...

AĞACLAR YELLƏYİR SARI YAYLIĞI

Ağaclar günəşi görsünlər deyə
Gözünün üstünə tutub əlini.
Fəzada oynaşan sarı sünbüllər
Zümzümə edirlər «Sarı gəlin»i.

Qürbətə yollanan durnalar kimi,
Elə «yar-yar» deyir sarı yarpaqlar.
Dözməyib bu sarı ayrılıqlara,
Çəkilir ağacda dara yarpaqlar.

Dumana qoşulub gedən bahara
Ağaclar yelləyir sarı yaylığı.
Qəfildən oyanan qısqanc bir külək,
Salır əllərindən yerə yaylığı.

Saçları seyrələn xanım payızın,
Soyuq nəfəsindən yağış qoxuyur.
Çılpaq budaqların gözü yaşarır,
Deyəsən, hardasa Qədir oxuyur.

Sanki Qarabağda qızıl payızın
Bələnib qızılı qana bülbülü.
Ağaclar sapsarı səsə çevrilir,
Hıçqıra-hıçqıra «Sona bülbül»ü.

10.10.09, Ufa

DAŞINIR VƏTƏN

Şütüyən qatarla, uçan uçaqla
Torpağın daşınır, daşınır Vətən.
Yüyürür ardıyca mavi dalğalar,
Çiçək gözlərində yaş yanır Vətən.

Bakı… gözəl Bakı baxır mürgülü,
Uca Qız qalası beli bükülü.
İçərişəhərin içi sökülür,
Köksünə yabancı quş qonur, Vətən.

Qar yağır…. ümidim durna köçündə,
Çadır şəhərciyi bir ah içində.
Qartopu oynayır fərəh içində,
Varlı balalarla qaçqının, Vətən…

Sumqayıt, 2008

DEYİRLƏR,
DÜNYANI SU ALAR BİR GÜN

Allah, şükür sənin kəramətinə!
Hələlik dünyada hələlik sağam.
Kiminin əlindən əllərim tutur,
Kiminin gözündə uca bir dağam.

Şükür ki, əllərim azmır yolunu,
Şükür ki, baş əyir alın tərimə.
Gözünün önündə uçan mələklər
Arada qonurlar çiyinlərimə.

Hələ ki, dünyanın suyu şirindi,
Nəfəs alıb-vermək ondan da şirin.
Deyirlər, dünyanı su alar bir gün,
Ətri boğulacaq gül-çiçəklərin…

Yenə də tikilir Nuhun gəmisi,
Yenə də əhv edir Allah qulunu.
Mənim ürəyimi nişan alanlar
Hər gün nişan verir sənin yolunu.

Ufa, 2008

UNUDULMAZ CƏNNƏTİM

Eh… unutdun məni,
Sən də unutdun.
Ötən qatar kimi,
axan çay kimi.
Amma ay mənim
Canda canım,
Günahın yox ki, sənin,
Heç yox!
Axı sən mənsən,
Özün deyilsən daha,
and olsun Allaha,
ancaq mən
unutmadım səni,
sən ola-ola.
Heç bir gün də unutmadım.
Yadım mənim,
Doğmam ol,
Bacım, qardaşım ol.
Təki uzaqda olma
Yanımda, canımda ol,
Ey mənim unudulmaz cənnətim!
İstəyirsən lap cəhənnəmim ol,
Amma uzaqda olma
Canımda, qanımda ol…

GƏL

Məni məndən alıb getdin,
Məni məndən alanım gəl.
Qaytar məni el-obama,
Yad ellərdə solanım gəl.

Sinəm üstə əriyir şam,
Pərvanələr dönür axşam.
Mən sənինçün doğulmuşam,
Gözlərində qalanım gəl.

Xanım, paşam, şahım mənim,
Dağda bitən ahım mənim.
Ay sevgi Allahım mənim,
Mən başına dolanım gəl.

Soyuq qürbət bükür məni,
Vətən dərdi çəkir məni.
Ağla məni, hönkür məni,
Həzin layla çalanım gəl.

Söz deyirəm aram ilə,
Bu dünyanı quran ilə.
Aram yoxdu haram ilə,
Ömrüm, günüm, halalım gəl…

BƏNÖVŞƏ -5

Qış kəsib qapını, yazdan xəbər yox,
Sığınıb təbiət qara, bənövşə.
Ağ ipək yaylığı salıb çiyninə,
Baş açıq gedirsən hara, bənövşə?

Bu torpaq qardaşsız bacı kimidi,
Dərəsi açılmış ovcu kimidi.
Bu dünya özü də ovçu kimidi
Amandı düşərsən tora, bənövşə.

Həsrətəm üzünün şən aynasına,
Gecələr əriyən şam aynasına.
Gəl bax gözlərimin can aynasına,
Doyunca saçını dara, bənövşə.

Sən ki bu dünyada ətir şahısan,
Ürək titrəyişi, könül ahısan.
Bəlkə boynubükük eşq Allahısan
Səcdəyə gəlmisən Yerə, bənövşə.

Çöl-çəmən bilir ki, gəzirəm sənsiz,
Bu eşq dənizində üzürəm sənsiz.
Sənsizəm, min ildir yazıram sənsiz,
Düzəlmir yenə də ara, bənövşə.
Ara Baloğlanı, ara, bənövşə!

YAŞAYIR

Böyük şairimiz M.İsmayılın
yubileyində deyə bilmədiyim şeir

Səni unudammaz bu dağ, bu dərə,
Çoxun çırpılsa da, azın yaşayır.
Göylərə uçsa da, şair dostların
Hamının sözündə izin yaşayır.

Gözəl xatırlayır «Natəvan» səni,
O masa, o kürsü, o tavan səni.
Həsrətlə gözləyir yurd-yuvan səni,
Kül örtmüş ocaqda közün yaşayır.

Taleyi ovcunda yazılan şair,
Sözləri yüz cürə yozulan şair.
Vətəndə sözündən asılan şair,
Qürbətdə ömrünü qızıl yaşayır.

İçində boylanır bir kənd uşağı,
Qar kimi saflıqdan var yaraşığı.
Şükür ki, yurdunda yar yaraşığı,
Oğuldan qeyrətli qızın yaşayır.

Məni də bu dünya üzüb, üzdürüb,
Hayıf o yerlərdən, hayıf, küsdürüb.
Baloğlan adını Məmməd yazdırıb,
Gedərəm, bilsəm ki, sözüm yaşayır.

fevral, 2008, Ufa

BALOĞLAN HAVASI

Məni səndən soruşsalar, deyərsən,
Hələ də gözləri məndədi onun.
Özü qərib-qərib qürbəti gəzir,
Bənövşə ürəyi kənddədi onun.

Gül əkdi, dərdiyi dərd-kədər oldu,
Ömür boşa getdi, gün hədər oldu.
Dərbədər dolandı, dərbədər oldu,
Başı dumanlarda, çəndədi onun.

Sinəm ürəiynin, eşqinin yeri,
Aşıb keçəmmədi kəbin-kəndiri.
Bir təndir qaladı, həsrət təndiri,
Misralar əlində kündədi onun.

Əlim əllərinə enib bitmədi,
Baloğlan havası çıxıb getmədi.
O da sevdasına yerdə yetmədi,
Bütün fikri-zikri göydədi onun.

SƏN DÜŞDÜN TARİXƏ

Sənə yolladığım məktublarımı
Ulum çayınamı cırıb tulladın?
Yoxsa xəzəl kimi yığıb bir yerə
Hələ də sönməyən ocaq qaladın?!

Nə etdin, nə yapdın məktublarımı?
Niyə indiyədək sorağı yoxdu?
Adına tikdiyim eşq dumanının
Pərvanə gətirən çırağı yoxdu.

Adımı boynundan asıb gəzirdin,
Onu da toy günü salıb itirdin.
Toya gələnlərin gözü önündə,
Bakirə eşqimi qətlə yetirdin.

Sevib suvardığım gül-çiçəkləri,
Bir qəlbi səhraya ənam elədin.
Bəzəyib mənimçün dar ağacını,
Üç kəlmə sözümü edam elədin.

O vaxtdan sözlərim can verir elə,
Yaralı könlümün qanadı kimi.
Sən düşdün tarixə bu minval ilə,
Dünyanın vəfasız qadını kimi.

2008, Ufa

KƏBİN-KƏNDİRİMİZ GÖYDƏ KƏSİLDİ

Dünya eşqimizə qadağa qoydu,
Toyumuz yerdə yox, göydə çalındı.
Həzin «Vağzalı»nın qanadı altda,
Bizim ürəyimiz göydə calandı.

Kəbin-kəndirimiz göydə kəsildi,
Nurani Ay baba ulu şahidi.
Bakirə eşqimiz mələk qanadı,
Təzə libasımız buluddan idi.

Halay bulağında ulduz yağışı,
Yağdı başımıza, yağdı o gecə.
Mənim ürəyimdə səssiz-səmirsiz,
Sən adda bir ulduz doğdu o gecə.

Dumana bürünüb Əsli və Kərəm,
Fərhadla yanaşı Şirin də gəldi.
Məcnun Leylasının tutub əlindən,
Məclisin ən şirin yerində gəldi.

«Yallı»ya qoşuldu göyün üzündə,
Şabaş yağışına dönən ahımız.
O vaxtdan hər gecə mələklər kimi,
Qol-boyun uçurlar göydə ruhumuz.

Bizim kəbinimiz göydə kəsildi,
Elə toyumuz da göydə çalındı.

20.09.09

SƏNİN BU GECƏDƏ NƏ İŞİN VAR?

Gecə paltarlı qadın,
İncə paltarlı qadın.
Sənin bu gecədə nə işin var?
Çəkil bu gecədən,
Əkil bu gecədən.
Bax, bir azdan
Çiçək əllərin
Bulaşacaq bu gecəyə…
Əllərin tanınmaz olar,
Sönər əllərinin işığı.
Tellərin qarışacaq,
Alışacaq bu gecəyə.
Tellərin tanınmaz olar.
Yanar əllərinin işığı,
Sönər əllərinin işığı.
Ulduzlar-gecənin göz yaşları
Asılacaq kirpiklərindən.
Doğulacaq Ay
Gözlərinin işığında…
Bu gecə səhəri Ah doğacaq
Qucağında Günəşi.
Sönər əllərinin işığı,
Yanar əllərinin işığı
Sənin bu gecədə nə işin var?

Ufa, 2008

MƏN-BALOĞLAN
CƏLİL İDRİSİ

Mən ən böyük şair ola bilərdim,
ən böyük!
Vaqif kimi,
Füzuli kimi,
Haqq yolunda
diri-diri soyulan
Nəsimi kimi.
Ürəyi Azərbaycanda
sümükləri hələ də
Hələbdə qalan
İmadəddin Nəsimini deyirəm,
Eşidirsiz məni?!
İmama dönən Nəsimini.
Amma mən nə Vaqif,
Nə Füzuli,
Nə də Nəsimi oldum.
Nə də haqq yolunda
Diri-diri soyuldum.
Mən adı yuxarılarda
Səslənməyən adi bir şair oldum.
Adi bir şair.
Məni nə televiziya dəvət edir,

Nə də Milli Məclis.
Bir-iki şair dostum
Tanıyır məni,
Bir də ki, o qız-
Sevdiyim qız.
İndi mən-Baloğlan Cəlil İdrisi
Bir-iki söz yiyəsi
Yalnız və yalqız
Qürbətdə
Oğlanlarımçün yaşayır,
O qız üçün yazır,
Vətən üçün ölürəm…

KİMSƏYƏ DEMƏ

Səni sevdiyimi kimsəyə demə,
Körpə eşqimizə yenə göz dəyər.
Səni qısqanarlar şeirlərimə,
Üzünə həsrətlə baxar özgələr.

Bizim bu eşqimiz qoy gizli qalsın,
Eşq özü ilahi bir sirdir elə.
Görüşək adicə adamlar kimi,
Bu da mənim üçün bəsimdir elə.

Görüşək adicə adamlar kimi,
Öpüb əzizləyək o son gecəni.
Bir kimsə duymasın, hiss eləməsin,
Bizim qəlbimizdən gəlib-keçəni.

Bir əsim meh kimi sarılsan mənə,
Özünü unudub itirəcəksən.
Kəpənək əllərin qonsa çiynimə,
Yenə çiçək kimi titrəyəcəksən.

Bilirəm sən məni görürsən hər gün,
Baxanda xatirə güzgülərinə.
Arada boylanıb mənə baxırsan,
Darana-darana güzgü yerinə.

Bilirəm, vallahi, bilirəm yenə,
Sən məni hələ də sevirsən indi.
«Amma bu sevgimi kimsəyə demə»
Sən də pıçıltıyla deyirsən indi.

TÜRK BAYRAĞI

Başkortostanın Ufa şəhərində böyük Türk qardaşlarımızın inşa etdiyi "RUS-CAM"Şişə fabrikasının üzərində dalğalanan Türk bayrağına...

Dolaşıbdı yer üzünü,
Görüb zülmün hər üzünü.
Ayparanı,yıldızını
Göydə dərib Türk bayrağı.

Hər daş ağır öz yerində,
Gözəl olur söz yerində.
Atatürkün gözlərində
Zəfər görüb Türk bayrağı.

Uca-uca dağ başında,
Anaların göz yaşında
Dalğalanır yurd dışında
Məğrur-məğrur Türk bayrağı..

Hanı öylə bayraq, hanı?
Bayraq etsin şəhid qanı.
Döndəribdi bu dünyanı
Haqqa sarı Türk bayrağı.

Ey qoca yurd, sən də ayıl,
Qarşısında baş əy, əyil.
O adicə bayraq deyıl,

Qeybdən varıb Türk bayrağı.
Günəş kimi qürub etməz,
Göy üzündən durub getməz.
Bir dəryadır, nuru bitməz,
Tanrı nuru-Türk bayrağı!
Aydan arı-Türk bayrağı!
Sudan duru-Türk bayrağı!

ATƏŞKƏS

Yenə də bu dünya başayaq gəzir,
Başmaq başa keçib papaq ayağa..
Papaqdan keçənlər başdan keçmədi,
Vətəndən keçənlər keçir qabağa.

O qılınc, o qəzəb, o kin dediyin
Qürbətdə yaşayır qərib ömrünü.
Şəhid başdaşılar qalxıb məzardan
Almaq istəyirlər geri ömrünü...

Yağır ayağını yerə döyməkdən
Nalları tökülür kəhər atların .
Gəlmir kişnərtisi qeyrətin daha,
Tutub boğazını qəhər atların.

Havalı–havalı uçan ruhların
Dəli küləklərlə gəlir sorağı.
Hər gecə yuxudan hövləng oyanıb,
Sərhəddə qan qusur Zəfər bayrağı.

Baxıb o dağların ağ saçlarına,
Boğur ağacları xəcalət təri.
Düşmən güllələri fit çala-çala
Körpə sinələrdən gül-çiçək dərir.

Mimbərdə mollanın səbr kasası
Süküt süfrəsinə daşıb qan dadır.
Qonşuda oynayan kürən itlərin

Dirijor çubuğu Vatikandadır.
Təzə hava üstə kilsə zəngləri
Döyür rəngi qaçmış köhnə palanı.
Qara kölgəsində atəşkəsdinin
İlan tək qıvrılır atəş planı.

Hanı Şah İsmayıl qılıncı, hanı
Qırsın bu qanunsuz qanunu,Vətən.!
Sən də anam kimi xeyir-dua ver,
İçim qansızların qanını, Vətən.!

mart, 2012

NƏ YAXŞI BU EVİN PƏNCƏRƏSİ VAR

Nə yaxşı bu evin pəncərəsi var.
Nə yaxşı hər sabah onu silirsən.
Orda şəhid olan baxışlarımın
Tər kimi buğlanan qanı silirsən.

Soyuq pəncərədə çırpınan adım
Qəmli gözlərinə baxıb ağlayır.
Adım ağladıqca sən ağlayırsan,
Uzaq xatirələr yaxın ağlayır.

Sənin pəncərəndə adım ağlayır,
Soyuq göz yaşını silib durursan.
Üzünü gizləyib evdəkilərdən
Ömür saatını yenə qurursan.

Boylanıb yenə də baxırsan yala,
Bir az aralayıb tül pərdələri.
Deyirsən, o gedən kimdir, İlahi?
O ola, o ola, qayıda geri...

Nə yaxşı bu evin pəncərəsi var,
Nə yaxşı sənin tək baxır yollara.
Hər sabah sındırıb pəncərələri
Ürəyin mənimlə çıxır yollara.

ÜRƏYİMƏ DAMIB

Mismarlayın məni əllərimdən divara,
Mismarlayın.
Əllərim içimdəkiləri uçurub
köçürə bilmir varaqlara...
Günahı çoxdu əllərimin.
Daş atıb
çayların nəğməsini yaralayıb,
pəncərəsini çilikləyib.
Barmaq–barmaq balıqların
bağrını yarıb,
göz yaşını gilələyib.
Güllələyib yaşıl yuxusunu quşların.
Ərköyünlüyü tutub əllərimin
budaqları silkələyib,
yarpaqları diksindirib
ağacları çıxa-çıxa.
Çəkin əllərimi çarmıxa,
İsa Məsihi kimi...

Nəsimi kimi ağrı bilməz əllərim.
Qorxubilmız əllərim
Cəhənnimi görüb gəlib-
Qədəhlərin qadın boğazından yapışıb
qəh-qəhə ilə

dərdi şərab kimi içib gəlib.
Çəkin əllərimi çarmıxa
adamı öldürən
Söz-mismarlarla,
düz misralarla
çəkin əllərimi çarmıxa.
Ürəyimə damıb
Daha
əllərimdəm qan əvəzinə
şeir damar damla-damla,
söz-söz, misra-misra
Çəkin əllərimi çarmıxa...

aprel 2012-ci il, Ufa

DÜNYA QƏRİB AXŞAMIDI

Səsin gəlmir ay qız niyə,
Çəkildinmi yoxsa göyə?
Boylananda Ay-güzgüyə
Məni orda görürsənmi?

Aydan arı, sudan duru,
Adamlarmı səni qırıb?
Mənim kimi qərib-qərib
Sən də ömür sürürsənmi?

Dünya qərib axşamıdı,
Göz yaşları ağ şanıdı.
Kimsə məni oxşamadı,
Xəbərin var, bilirsənmi?

ŞEİR KEFDƏN YARANMIR

Şeir kefdən yaranmır ki,
Bir az eşqdi, bir az kədər
Şair yüz cür dərddən keçir
Gəlib çıxır şeirə qədər.

Şeir yolu-şair yolu
Dağ əridən ahla dolu
Əsil şair Allah olub
Yazib göydən yerə qədər.

Ondan sonra Nəsimidi,
Füzuli tək tilsimidi.
Baloğlan da bir simidi
Onlar kimi gəldi, gedər.

KÖNÜL VERMƏRƏM ÖZGƏYƏ

Könül vermərəm özgəyə,
Yalan uyduran güzgüyə.
Məni sevən o qız guya,
Baxır yollara-yollara.

Baxmaz daha, baxmaz vara,
Ürəyində bir Aypara.
Hərdən dönüb buludlara,
Yağır yollara-yollara...

Qaldı duman, çən qayada,
Bir yarımçıq can qayada.
Deyir Baloğlan qayıdar,
Çıxır yollara-yollara.

BƏNDƏ TƏK

Sən də çıxıb getdin daha,
Məni qoydun tək və tənha.
Bir az oxşadım Allaha
Yer üzündə hər bəndə tək.

Dalğalandı ümman dərdim
Ürəyimi açıb sərdim
Nə istədin onu verdim
Elə dedin ver bəndə tək.

Harda qaldın, harda axı
Qayaları yıxdı ahım.
Qayıt mənim eşq Allahım
Yalvarıram bir bəndə tək.

YOLUMUZ BİR İDİ

Soyuduq alovu sönən ocaq tək
Dalıb xəyallara külümüz indi.
Yanardıq bir odun alovunda biz
Səpilir yollara külümüz indi.

Ağac tək yollarda qoşa bitərdik,
Sevgi dənizində üzüb itərdik,
Quş kimi bir yerdə dil-dil ötərdik,
Tutulub elə bil dilimiz indi.

Bir də birləşərik haçan dünyada
Ayrılıq könlünü açan dünyada.
Yolumuz bir idi qoca dünyada
Ayrılır nə üçün yolumuz indi.

DÜNYA ŞİRİNDİ

Bu dünya nə yaman vəfasız imiş
Vəfalı dostlardan gen gəzir gülüm.
Desəm doğrusunu incimə məndən,
Bir qədər sənə də bənzəyir gülüm.

Sənə gülüm dedim, çiçəyim dedim,
Çəkildin dağlara bənövşə kimi.
Bizim aramızda tikanlı kollar
Yarandı keçilməz bir meşə kimi.

Çiçək əllərinin zərifliyinə
Qonub nəğməsini oxudu arı.
Titrəşən ürəktək kəpənəklərin
Sancıldı kollara ağ qanadları.

Bir də səni görmək ümidi-xəyal,
Bir də deyirlər ki, Allah kərimdi.
Vəfasız olsan da bu dünya kimi,
Hələ dünyadasan, dünya şirindi.

TƏRƏZİDİ DÜNYA

Gəlib gedənlərin nazına dözən,
Açılıb örtülən qapıdı dünya.
Gündə əlli dəfə boşalıb dolan,
Tanrının söz dolu qabıdı dünya.

Ay əli dualı diz üstə çökən,
Ha onun eşqinə, sözünə söykən.
Savaba göz yumub, günahı çəkən,
Tərəzidi dünya, qapandı dünya.

Özünü axtarsan Pirdə görərsən,
Bir ovuc torpaqda, yerdə görərsən.
Açıb gözlərini bir də görərsən,
Bir göz qırpımında qapandı dünya.

BƏNÖVŞƏ-6

Sinəsi yaralı qaranquş kimi,
Düşdüm bu dağlara qonaq, bənövşə.
Gəl bu gün sənlə qol-boyun olaq,
Eşqin zirvəsinə qonaq, bənövşə.

Könül bağlamışam, könül tək sənə,
Qorxuram Qurbani ruhu diksinə.
Çat verə ürəyi şüşə tək sına,
Tuta boğazımı günah, bənövşə.

Niyə ah çəkirsən, ahın dağlara,
Yaxın gəl bir qədər, yaxın dağlara.
Körpə çiçək kimi sığın dağlara,
Bir daha çəkməsin Gün ah, bənövşə.

Gəldin bu dünyaya puçur-puçur sən,
Kimçün ətirlənib ətir saçırsan?
Yoxsa kol dibinə gəlin köçürsən,
Belə bəzənmisən dümağ, bənövşə

Qürbəti dolaşıb gəzib gəlmişəm,
Qaya daşlarından sızıb gəlmişəm
Səni anam üçün üzüb gəlmişəm,
Üzündə dumandan duvağ, bənövşə,
Şahiddi bu dərə, bu dağ, bənövşə

QIVRILAN SÜKUT

Qorbaçovun dövründə yaşıl dəniz kimi dalğalanan bərəkətli çay kollarımızı az bir zamanda kəsib məhv etdilər.
İndi isə o yerlər satılır...

Yenə bu payızda gəzdim Zövləni,
Gördüm dərd içində talan çaylığı.
Yenə qəmli-qəmli dalğalanırdı,
O tənha çinarın sarı yaylığı.

Əl-ələ tutaşan yaşıl kolların,
Ətir dənizindən əsmirdi yellər.
Çıxmadı qarşıma sevgilim kimi,
Baharı çiynində daşıyan kollar.

Bir günün içində bu gözəl yurda,
Bu yurd daşlarımız gör neylədilər?!
O yaşıl kolları dibindən kəsib,
Yaşıl dünyamızı güllələdilər.

Hanı Fizzə nənə, şirin diliylə,
Rəngarəng sözlərdən xalı toxuya.
Gəlib Xeyrə qarı bircə nəfəsə,
Bayatı çağırıb, nəğmə oxuya.

Getdi o kolların yanaqlarında,
Bizim anaların holavarları.
Dəstənin başında çay yığa yığa

Səsləyən yox daha gilavarları.
Əs, ey dəli külək, yol saçlarımı,
Hönkür, başım üstə qaralan bulud!
Danış, o günlərdən bir nağıl danış,
Döymə gözlərini qıvrılan süküt!

-Bu kəndin payızı qorxudur məni,
Soyuq nəfəsinin bir xətası var.
Bu kəndin başında hələ yellənən,
Yarpağı saralmış kəndxudası var.

Bu kəndin payızı qurtara bilməz,
Oyada bilməsə dərd kişiləri,
Yazda da yellənər sarı yarpaqlar
Oyanın kəndimin mərd kişiləri.
Oyanın kəndimin qurd kişiləri!

Ürəyim sıxıldı... çıxdım kövşənə,
Gördum dərd içində talan çaylığı.
Yenə qəmli-qəmli dalğalanırdı,
O tənha çinarın sarı yaylığı.

Zövlə-03.10.2011

ÖZÜMDƏN ÖZÜMƏ BİR YOL SALMIŞAM

Gözə görünməyən dərdlərim kimi
Mən də bu dünyaya tənha gəlmişəm
Özümdən özümə çıxdığım yola
Karvan ləngərində pünhan gəlmişəm.

Özümdən özümə bir yol salmışam
Kimsə əllərimdən tutmayıb mənim.
Bəzən öz özümdən elə qaçmışam
Dostlarım tüstümə yetməyib mənim.

Özümdən özümə bir yol salmışam,
Mən özüm özümü tanımaq üçün.
Özüm öz içimdə cihad etmişəm
Özümü özümdə sınamaq üçün.

Özümdən özümə çəkdiyim yolun
Əvvəli özüməm, son ucu-Tanrı.
Arabir düşürəm onun yadına-
Boylanır yoluma göz ucu Tanrım.

Mən özüm özümü gəzmişəm elə-
Sən demə bir yol da özüm imişəm.
Xəbərim yox imiş özümdən Allah,
Mən də bir mübarək Sözün imişəm.

PƏNCƏRƏDƏN DAŞ GƏLİR

Kəndimizə Qarabağdan şəhid gətirilirdi,
bu vaxt radio oxuyurdu...

"Pəncərədən daş gəlir,
Ay bəri bax, bəri bax."
Güllə gəlir, baş dəlir,
Oy dərdə bax, dərdə bax.

Pəncərənin milləri,
Qan ağlayır gülləri.
Xumar gözün yerinə
baxır güllə yerləri.
Sus, kiri, bax, kiri, bax.

Pəncərəni mərmilər,
Vurub yerə sərdilər.

Səadəti, xoş günü
Gözümüzdən dərdilər.
Dön geri bax, geri bax.

Pəncərədə qan qanır,
Əvəz edir qan qanı.
Bölgələr əldən gedir,
Qalır ancaq başqanı.
Sən dərdə bax, dərdə bax.
"Pəncərədən daş gəlir,
Xumar gözdən yaş gəlir."
Pəncərə qan qoxuyur,
Kimlərəsə xoş gəlir.
Yan, dərdə bax, dərdə bax.
Qan, dərdə bax, dərdə bax,
Əldən getdi Qarabağ.

GECƏLƏR

Sevgisiz bu ömür susuz çay kimi,
Xəyal dənizinə axır gecələr.
Sənsiz ötüb keçən acı günlərin
Tüstüsü başımdan çıxır gecələr.

Hanı o nəğmələr-mənə yazdığın,
Ürək səslərimə qulaq asdığın?!
Sənsiz qəribsəyən ipək yastığın
Məni sinəsinə sıxır gecələr.

Durub aramızda ayrılıq dağı,
Yol çəkən gözümə çəkir göz dağı.
O sevgi şərabı, o vüsal çağı
Könlümü yandırıb yaxır gecələr.

Sən getdin, nəfəsim getdi, gəlmədi.
Yaşamaq həvəsim getdi, gəlmədi.
Eşq adlı qəfəsim getdi, gəlmədi,
Gəldi bir-birindən ağır gecələr.

...Bir vaxt saçlarımda gəzən əllərin,
Sinəmdə çırpınan, əsən əllərin,
Qaynar öpüşlərdə üzən əllərin,
Göyləri başıma yıxır gecələr.

Ah nədən inciyib, küsdü pəncərən,
Sönən ocaq kimi susdu pəncərən.
O doğma, o əziz isti pəncərən

İndi soyuq-soyuq baxır gecələr.
Bu da bir taledi,vüsaldı elə,
Bizim alnımıza yazıldı belə...
Sən məni bir həzin pıçıltı ilə
Cənnət qucağına çağır gecələr.

29-may 2013, Ufa

MƏN ŞEİR YAZANDA ŞAİR OLURAM

Mən şeir yazanda şair oluram
Mənə özgə zaman şair deməyin.
Hər gün ürəyimdə edam günüdü,
Sizi aldatmasın şeir deməyim.

Mən şeir yazanda şair oluram,
Şair şeir gələn anda doğulur.
Şeir də zindana bənzəyir biraz,
Şair ömrü boyu zindanda olur.

Mən şeir yazanda şair oluram,
Şeirə çevrilir qanım da mənim.
Şeirlə başlanan şairliyim də
Şeirlə qurtulur canım da mənim.

Yalnız bu qurtuluş bircə an çəkir,
Yenə də düşürəm dərd ocağına.
Sözlərim insafsız cəllada dönür,
Qələmim çevrilir dar ağacına.

Qələmim çevrilir dar ağacına,
Hərdən qərib-qərib dillənirəm mən
Asılıb qalıram söz kəndirindən,
Azadlıq eşqiylə yellənirəm mən.

Mən şeir yazanda şair oluram,
Bunu Vətənimin yadına salın.
Şeir də zindana bənzəyir- dedim,
Məni şeir adlı zindana salın.

SİNƏNDƏ ARXAYIN GƏZİRİK, VƏTƏN

Sinəndə arxayın gəzirik, Vətən,
Biz ola bilmədik üzərlik, Vətən,
Qol-budaq doğranır dözürük, Vətən
Dözürük, çatlamır baş-beyin hələ.

Şəninə söz demək yarışı gedir,
Dostlaşıb qurd-quzu yanaşı gedir.
Hamı bu axına qarışıb gedir,
Hamı bu axına baş əyir hələ.

Ölümü gözünə alan quşların
Daşı sinəsiylə yaran quşların
Yuvası üşüyən qaranquşların,
Qanlı sinəsinə daş dəyir hələ.

İgidlər dənlənir, dənlənir tək-tək
Hamının əlində kəsilmiş ətək.
Adamlar köç edir köçəri quş tək,
Gündə quş uçurur quşbəyi hələ.

AY BULUD

Nədən deyim, kimdən deyim
Sənə ay bulud, ay bulud?
Göy üzündə süzərsənmi
Yenə ay bulud, ay bulud?

Nə yaxşı ki, bir damdayıq
Söz-söhbətli adamlayıq.
Sən də mən də bir damlayıq,
Sənəm ay bulud, ay bulud.

Bu yer nədi? Göy üzü nə?
Üzüm qoyum qoy üzünə.
İstəyirəm göy üzünə
Dönəm ay bulud, ay bulud.

Sən buxarsan yoxsa susan?
Ay göylərdə daim susan?
Göy üzünün sonasısan,
Sonam, ay bulud, ay bulud.

Ulduz kimi baxdı anam,
Yağış idi, yağdı anam.
Torpaqlara axdı anam,
Anam ay bulud, ay bulud!

AĞRI

Karvandakı qızıl deyil,
Baxma belə toz qoparır.
Ay it, hürüb baş aparma,
Ötən karvan dərd aparır.

Çəkil belə, itil belə,
Ay yüzüzlü, yüz dil bilən,
Qorxma uçan o güllədən,
O güllələr mərd aparır.

Ağlım kəsir, susum necə?!
Bu ağrıya dözüm necə?!
İtin gözü önündəcə
Qoyunları qurd aparır.

BƏNÖVŞƏNİ

Qurbaniyə nəzirə

Gözəllik ardınca dolanan könlüm,
Axtarıb tapdınmı yaz bənövşəni?
Dəmir çarıq geyib dünyanı dolan.
Ara bənövşəni, gəz bənövşəni.

Bənövşə-çəmənin pakı, təmizi,
Bənövşə-Leylinin sadiq kənizi,
Bənövşə-dünyanın ətir dənizi,
Ətir dənizində üz bənövşəni.

Dünyanın əvəlli, axırı da su,
Düymə dodaqları könül oğrusu...
Dağa paxıllığım tutur doğrusu,
Ətrindən məst olub yüz bənövşənin.

Yenə də sinəmdə ocaq qalandı
Ömür də gül kimi bir gün solandı,
Əməldən savayı hər şey yalandı-
Qədəh-gözlərinə süz bənövşəni.

Ürəyimdə qalaq-qalaq ağrı var,
Gecə-gündüz fəryad çəkər, ağrıyar,

Vallah,məni gül-çiçəklər qarğıyar,
Bu il də dərməsəm qız-bənövşəni.
O, elə zərifdi, incədi, tərdi,
Yolunda Baloğlan başını verdi,
Qoy məni öldürsün bənövşə dərdi,
Dodaq mənim olsun, üz-bənövşənin.

BƏNÖVŞƏNİ

Şair Məmməd Aslana

Necə dolanırsan, ay Məmməd əmi,
Görə bilirsənmi tər bənövşəni.
Sən sözün xətrinə dağlara baş çək,
Kol-kosun dibindən dər bənövşəni.

İşdi onu görsən məndən salam de,
Sehirli, keçilməz çətin yolam de,
Mən də sənin kimi eşqi lalam de,
Bəyənə bilmirəm hər bənövşəni.

O, yazın dilində həzin pıçıltı,
Elə düşünmə ki, ömrü puç oldu.
Bu sevgi yolunda hələ puçurdu,
Bir az üşütsə də qar bənövşəni.

Qəlbinin odunu verməz özgəyə,
Ümidin bağlayar torpaq güzgüyə,
Günəş də başına dolansın deyə,
Köksündə bitirib Yer bənövşəni.

Qayadan eşqi var,həyadan donu,
Vüsaldan yuxarı tutub adını,
Deyilən tərifdən, sözdən utanır,

Aparır arada tər bənövşəni
Yolunu nişan ver, Baloğlan, gedim
İpək saçlarında yox olum, itim,
Sərib sinəm üstə vüsala yetim,
Mələk bənövşəni, hürr bənövşəni.

BƏNÖVŞƏNİ

Daha bənövşədən deyən yazmırıq,
Yəqin unutmuşuq biz bənövşəni.
Yazağzı bənövşə tapmağa nə var,
Qışın ayazında gəz bənövşəni.

Bənövşə-getdiyim bu yolun sonu,
Təpədən-dırnağa təmizlik donu.
Daim axtararam gəzərəm onu,
İçində gəzsəm də yüz bənövşənin.

Qəlbimi yenə də bürüdü kədər,
Ömür hədər keçir, deyəsən hədər
Toxunsa əllərim özündən gedər,
Qalar yanağında iz bənövşənin.

Könlümün atəşi soyumur nədən,
Bu eşq ürəyimdə uyumur nədən
Zərif yanağını gördüyüm gündən,
Həsrət mənim olub, naz bənövşənin.

Onu dərmək günah,dərməmək günah
Hər yaz yanağını görməmək günah,
Dizinə baş qoyub ölməmək günah,
Batım günahına qız bənövşəin.

Eşqi açılmamış göyün sirridi,
Hələ yazılmamış eşq əsəridi,
Yəqin ona görə boynu əyridi,
Qurbanı olduğum yaz bənövşənin.

ELƏ BAXMA

Qara gözün giləsi-
Qara üzün giləsi
Könlüm elə kövrəlib,
Bir də çətin güləsi.
Elə baxma, kül oldum.

Heç bilmirəm nə sirdi,
Könlüm sənə əsirdi.
Mənim yazdıqlarım heç,
Gözün əsl şeirdi,
Elə baxma, kül oldum.

Səni dərən deyiləm,
Telin hörən deyiləm,
Niyə yanıb-yaxılım,
Mən ki, Kərəm deyiləm.
Elə baxma, kül oldum.

Sənin xəstən,dəlin mən,
Ürəyində ölüm mən,
Çox da mənə inanma,
Xəta çıxar əlimdən,.
Elə baxma, kül oldum.

XƏBƏRİN YOX

Ağlım kəsdi, gözüm gördü,
Buynuzlayır quzu qurdu,
İçindədir ceviz qurdu,
Ağac, sənin xəbərin yox.

Çoxumuz ağa kimidi,
Çanaqlı bağa kimidi,
Yağılar buğa kimidi,
Buğac, sənin xəbərin yox.

Kəfəni hazır dirinin,
Gözü doymur bu dərənin,
Bıçaq sümüyə dirənib,
Ağ qoç, sənin xəbərin yox.

DÜNYA

Bu yol məni hara çəkdi?
Sözlərimdən dara çəkdi.
Dünya qara hörümçəkdi,
Yollar onun torudurmu?

Yarı daşam, yarı adam,
Qəbrimə var yarım addım,
Mən dünyadan yarımadım,
Dünya məndən yarıdımı?

Qolum bağlı, əlim təkdi,
Məni şəhid qanı çəkdi,
Bu qırğında öləcəkdim,
Allah məni qorudumu?

Öz ağlını yeyib dünya,
Nağılını deyib dünya,
İp əyirən əyri dünya
Küpəgirən qarıdırmı?!

BAĞIŞLA USTAD

M.Füzulinin 500 illik yubileyinə gedə bilmədim...

Bu gün ad gününə gələ bilmədim,
Nəmli gözlərini silə bilmədim,
Şəbi-hicran oldu, ölə bilmədim.
Sən məni bağışla, bağışla ustad.

Qeybdən uçub gələn sözün xətrinə,
Səmadan boylanan gözün xətrinə,
Səni Məcnun edən qızın xətrinə,
Sən məni bağışla, bağışla ustad.

Bir söz deyəmmədim adına axır,
Gəlib düşəmmədim oduna yaxın,
Məni günahlarım yandırıb-yaxır,
Sən məni bağışla, bağışla ustad.

Duymadım eşqini sevənə kimi,
Sevdim dəli kimi, divanə kimi.
Namərdlər qoymadı pərvanə kimi
Dolanım başına, başına, ustad.
Sən məni bağışla, bağışla ustad.

O,qəm karvanının köçünə hayıf,
Mənsiz o dünyaya köçənə hayıf,
Mən gələ bilmədim gecənə,hayıf,
Sən məni bağışla, bağışla ustad.

ŞƏHİDLİYİN UCA ZİRVƏSİ

Bura Çanaqqala! Şükür Allaha,
Bu yurd "La ilahəilallah" - deyir.
Ruhum bu yerlərə hələ qonmamış
Salavat çevirib, "bismillah" - deyir.

Bura Çanaqqala-ruhlar diyarı,
Mübarək ocaqdı, pirdi burası.
Bura yer üzünün ən pak nöqtəsi,
Şəhidlər yetirən yerdi burası.

Hər gün şəhid olan bəyaz dalğalar
Bəyaz mələklərə dönür arabir.
Gəlib gedənlərə qüsul verərək
Sonra boğazından keçirir bir-bir.

Bura Çanaqqala-şəhidlər yurdu,
Hər daş bulud kimi bir himə bənddi.
Nədən susduğunu soruşa bilsən,
Nələr çəkdiyini hönkürər indi.

Bura Çanaqqala–canlı bir muzey
Qayası əyilməz əsgər kimidi.
Dərd kimi uzanan dərin dərələr
Savaşdan danışan səngər kimidi.

Bu ulu torpağın hər addımı qan,
Qan verir hələ də hər bir aşırım.
Dəniz sinəsindən çəkilib getmir,
Düşmən gəmisinin açdığı şırım.

Bura Çanaqqala-türkün qeyrəti,
Alınmaz qaladı,keçilməz bərə.
Yad ellər qoynuna girməsin deyə,
Əl-ələ veribdir Egey, Mərmərə.

Bura Çanaqqala–üzü ağ qala.
Bəlkə də ilk adı Çənlibel olub.
Bircə zərbəsindən Misri qılıncın
Açılıb kəmər tək Dardanel yolu.

Burda əfsanəvi Koroğlu kimi
Hər daşın altında bir igid yatır.
Hər gün şəhidlərə gəlib baş çəkir,
Qədim Troyanın qanadlı atı.

Burda daşa dönən tər arzulara
Baxıb ana torpaq daş çiçəkləyir.
Yazda qızılgüllər gəlir səcdəyə,
Qışda göy üzündən qış çiçəkləri.

Sən də asta yeri gələn yabançı,
Bu torpaq kaman tək sıxıla bilər.
Diksinib inciyər yaralı qəlbi,
Küknarlar kükrəyib ox ola bilər.

Kəbə, Mədinə tək baş əy bu yurda,
Bu yurd şəhidliyin uca zirvəsi.
Durub ucalardan seyr edir yenə,
O mavi gözlünün mavi türbəsi.

Bura Çanaqqala! Şükür bu yurda,
Bu yurd "lailahə illallah" - deyir.
Ruhum bu torpağa hələ qonmamış
Salavat çevirib "bismillah" - deyir.

BAŞINA PAPAQ QOY

Bu özün, bu qılınc, bu da ki, kəndir,
Dünyada bir gün də bu yurdu ağla.
Yetər dolandığın başı papaqsız,
Başına papaq qoy, başını saxla.

Bu yurdun yaş dolu ovcu içində,
Papaqsız yağının atı dayanmır.
Papağı başında millət kef çəkir,
Papağı altında yatıb oyanmır.

Günü qara xalqın, gün gəzən xalqın,
Papağı həmişə günəşə yanıb.
Bu xalqın həmişə papağı olub,
Yağışlar həmişə başına yağıb.

Papağı altına çəkilib hamı,
Hamı öz başının hayına qalıb,
Torpaqdan pay olmaz-coşub deyənlər,
Bu gün sakitləşib-payını alıb.

Papaq başımızın gizlənən yeri,
Millət yuxusunda minir cin atı.
Çıxıb minbərlərə tez-tez deyirik,
Papaqlar altında oğullar yatır.

AYIN PARASI

Üzünə boylanıb havalanır Ay,
Keçib pəncərəni boynuna düşür.
Saçının ətrindən huşun itirib,
Südəmər körpə tək qoynuna düşür.

Hər gecə oğru tək səndən xəbərsiz,
Öpür üz-gözünü körpə ay nuru.
Yuxudan oyanıb baxıb görürsən,
Pəncərən önündə yenə Ay durub.

Yuxulu-yuxulu qalxıb yerindən,
Pərdəni çəkirsən ayın üzünə.
Parası evinin içində qalır,
Parası çəkilir göyün üzünə.

İŞIQ UCU

Sənin pəncərənin işığı yanır,
Sənin pəncərəndə Tanrı gücü var.
Sənin pəncərəndən sənə baxmağa ,
Deyəsən bu gecə işıq ucu var.

Sənin pəncərənin işığı gəlir,
Gəlib ürəyimi çəkib aparır.
İşığa yığışan pərvanələr tək,
Dəyib pəncərənə haray qoparır.

Sənin pəncərənin işığı gəlir,
Sənin pəncərəndə işıq ucu var.
Mənim gözlərimə düşüb işığı,
Sənin pəncərəndə Tanrı gücü var.

BADƏ YERİNƏ

“Sevgi məktubu”nun çoxunu cırdım,
Qoruyub saxladım yalnız birini.
İndi uşaqlardan ehtiyat edib,
Daha dəyişirəm tez-tez yerini.

Nənəmin sirr dolu boxçası kimi,
Eşqini ovcuna alıb gizləyir.
Səndən etibarlı çıxan məktubun,
Hələ də oturub məni gözləyir.

Bir vaxt yolladığın o məktubu da,
Alanda öpərdim əl izlərini.
Gör necə sınıxıb, saralıb indi,
Baxanda aparır qəm gözlərimi.

“Mən səni sevirəm” deyən məktubun,
Sabah tamam olur iyirmi ili.
Sabah dost-tanışı çağırım gərək,
Gərək qeyd eləyim yubileyini.

Sən də gəl xəlvəti, gəl çıx, əzizim,
Anan evinizi bəhanə elə.
Nə gəlir başıma sevgidən gəlir,
Görən başımıza sabah nə gələ.

Uçub gəl məktubun doğum gününə,
Baxışlar sarılsın biri-birinə.
Süzüb gizli-gizli xatirələrdən,
Çəkək başımıza badə yerinə.

DOLAN BAŞINA SÖZLƏRİN

Çiynində dərdin ağırı,
Gözündə qəmin böyüyü.
Hər səhər Allah-çağırıb,
Dərdin ardınca yüyürür.

Başında ayrılıq dəmi,
Heç kəsə dərdini demir.
Düz danışan uşaq kimi,
Arada sözü döyülür.

Qardaş uzaq, dostlar sərin,
Hələ bəlli deyil yerin.
Dolan başına sözlərin,
Hələ ki qəlbin döyünür.

BƏZİLƏRİ HAVA ÇALMAĞI SEVİR

Bəziləri-
Bu bəzilərin də hamısı yox,
Biri, ya da ikisi
Sevir səhər xaşı,
Axşam bozbaşı.
Hamıdan başı sevir,
Sevir tərifləməyi,
Tərifl ənməyi, əyləməyi, əyməyi sevir.
Sevir köhnə köynəyi,
Döşünə döyməyi,
Özünü öyməyi sevir.
Sevir yağı, qaymağı,
Yerində saymağı,
Soymağı sevir...
Sevir yüksəkdən baxmağı,
Hər cürə axmağı.
Tərifə uymağı
Eli, oymağı sevir.
Sevir dağı, alacığı,
Alçağa əl çalmağı sevir.
Sevir havasına yananları,
Oynayanları,

Oyananları çalmağı sevir.
Sevir hava çalmağı,
Havasına oynayanları-
Yananları, arxasında dayananları
Sevir.

Sevir can almağı-çalmağı sevir.
Sevir hava çalmağı, ucalmağı
Çalmağı sevir...

BAŞDAŞIMI YONACAQ USTAYA

Başdaşımı yonan qardaş,
Yaz başıma gələnləri.
Mən vaxt edib yazammadım
Öz başıma gələnləri.

Çox quzunu qurd elədim,
Özgə qəmi dərd elədim.
Qərib yeri yurd elədim,
Sez başıma gələnləri.

Söz gizlənib, söz dərində,
Qəm daşıyam sözlərimdə.
Bu yol çəkən gözlərimdə
Gəz başıma gələnləri.

Baxma belə göz-qaşıma,
Qeybdən gəlir söz başıma.
Məndən deyən başdaşıma
Qaz başıma gələnləri.

SALAM, SAĞ OL

Dilinin ucunda “salam, sağ ol”u,
Adamlar harasa yaman tələsir.
İpək gözlərində hiylə sığalı,
Dilinin altında insan tələsi.

Hamı susayıbdı insan ovuna,
Hamı öz-özünü, dərdini yazır.
Dayazda üzsə də ağlı dayazlar,
Qazanda ən dərin quyunu qazır.

Axı nə işiniz mənimlə sizin,
Buraxın qoy gedim işimə sarı.
Niyə qoymursunuz bir az düşünüm,
Dilimdə mübarək söz duaları.

Niyə qoymursunuz düşünüm axı,
Mənim ki heç kəsə zərərim yoxdu.
Dəryası quruyan balıq kimiyəm,
Quruda üzsəm də zəhərim yoxdu.

Siz Allah, buraxın qoy çıxım gedim,
Ağrı çəkən canım bəlkə sağaldı.
Bu dünya mənimlə yol gedən deyil,
Onsuz da bu dünya “salam, sağ ol”du.

SINIQ GÜZGÜ

Güzgüdə bir qərib kişi ah çəkir,
Gözündə bir gəncin eşqi çağlayır.
Çilik-çilik olmuş qəlb güzgüsündə
Saçları ağaran bir qız ağlayır.

Sınıb yerə düşən ürək güzgüsü,
Hər gün gözlərində yaşı sındırır.
Bölünür bir ömür yolu boyunca,
Onu bir xatirə güzgü yandırır.

Sındı güzgüləri, sındı qəfildən,
Milyon il sonraya qaldı toyları.
Bir vaxt bu güzgüdən biri baxardı,
İndi hər tikədən yüzü boylanır.

Güzgüdə bir qərib kişi ah çəkir,
Yenə qan qoxuyur qələm süngüsü.
Hər gün güzgülənir o gözəl pəri,
Köksünün altında sınır güzgüsü.

XIDIRZİNDƏ BABA PİRİNDƏ DÜŞÜNCƏLƏR

İtirdik bu yurdun cənnət payını,
Bilmirəm bu dərdə necə dözürük.
Qaçdıq özümüzün cənnət bağından,
İndi özümüzə cənnət gəzirik.

Bu torpaq hər yerdə təbərrik, möhür,
Təpədən dırnağa ziyarətgahdı.
Xıdırzində baba içindən qopan,
Daş pirə çevrilən sonuncu ahdı.

Narahat ruhuyla dolu bu dəniz
Əlində tutduğu su kuzəsidi.
Adam bu torpağa bir də vurulur
Görəndə babanın möcüzəsini.

Göyə büləndolan qaya qolları
Haqdan uçub gələn sözün yeridi.
Dağlar ki, bu qədər hündür,baba
Niyə hər işimiz uzundərədi?

Niyə yaşayırıq azad, asudə
Boğaza dirənib qeyrət, ay baba.
Daha adam kimi yaşamaq olmur,
Bizə daş olmağı öyrət, ay baba.

AĞSAQQAL YANINDA SÖZ DANIŞMIRIQ

Dünyanın öz dərdi özünə bəsdi,
Bəsdi gecə-gündüz deyinməyimiz
Bizim başımıza bəladı, bəla,
Xəlvətə çəkilib öyünməyimiz.

Töküb ağacların qızıl qanını,
Qırmızı geyinib taxt-taca çıxdıq.
Gözləri tutuldu ürəyimizin,
Uzağı görməyə ağaca çıxdıq.

Ancaq eşidirik uzaq səsləri,
Uzaq xəbərləri tez eşidirik.
Bizim qulağımız səsə alışır,
Hər gün təzə xəbər-söz eşidirik.

Biz elə əzəldən sözə baxanıq,
Ağsaqqal yanında söz danışmırıq.
Dəvənin beli tək bu "düz" dünyada,
Dümdüz otururuq, düz danışmırıq.

ŞAİQ VƏLİYƏ

Göy üzündə Ay işığı,
İşığında mələklər,
Yelpikləyir ulduzları
Qanadları yorulunca,
Süzür,üzür göy üzünü,
Lələyiylə, əliylə
Çimizdirir yer üzünü.
Aydan arı, sudan duru
Adamlar durub
əllərini qaldırır göyə ,
əkir göy üzünə əllərini.
Keçilməz meşəyə dönür
Göy üzündə qolları...
Buludları veyil,
Külәkləri avara,
Mələkləri sərxoş
bu gecənın şeytanı da var.
Adamın qəlbinə girir,
qəlbindən çıxmır.
"lənət şeytana"-deməyə dilim,
durub daş atmağa
əlim gəlmir...
onu da Allah yaradıb,
o da Allahın bir mələyidi,
Şeytan adında.
Hərdən adamın karına gəlir,
Qəlbinə girir,
Qəlbindən çıxmır.

ATAM

Alnında qırışlar-balıqçı toru,
Başında saçları-dağların qarı,
O,barlı ağacdır, biz onun barı,
Yetişib gedənik, qalandı atam.

Üzdən qocalsa da, qəlbi cavandı,
Torpaqdı,çörəkdi müqəddəs andı.
Təki çörək olsun... deməz yavandı,
Davanı yadına salandı atam.

Olub həyatında duman da,çən də,
Bərkiyib qolları çöldə, biçində,
Payızda durnalar eldən köçəndə
Bulud tək qaralıb, dolandı atam.

Uduzub neçə yol bəxt yarışında,
Yarımçıq bir sevda gəzər başında.
Yaşadır anamı göz yaddaşında,
Kövrək xəyallara dolandı atam.

AY ANA

“Bənövşə ətri” kitabımı anam oxuya bilmədi

Gözün aydın olsun, ruhun şad olsun,
Mənim də kitabım çıxdı, ay ana.
Mənim qara çuxam insafa gəlib,
Axır ki, üzümə baxdı, ay ana!

Bir az utancaqdır bənövşə kimi,
Bir az ürəyində bənövşə qəmi.
Doğdu taleyimdə günəşim kimi,
Gözümü yollardan yığdı, ay ana.

Gözünü gözümə dikib göyərib,
Suyu ürəyimdən çəkib, göyərib.
Hər sözü ürəyim əkib göyərib,
Hər sözə yağışтək yağdım, ay ana.

Düşdü qəribliyə, sürgünə şeirim,
Gəlib çıxammadı bir günə şeirim.
Adına yazdığım yeganə şeiri,
Öpüb gözlərimə sıxdım, ay ana

Bir ağrı göynəyir kürəyim boyu,
Hər ağrı-acını ürəyim duyur.
Əl boyda kitabım ürəyim boyu,
Çoxunu yandırıb, yaxdı, ay ana.

"Bənövşə ətri"dir tutub dünyanı,
Qəbrinin üstündə gəlib dayanıb.
Səndən gözlədiyi xeyir-duanın,
Yetişdi zamanı, vaxtı, ay ana.

KİŞİLƏR BAŞ ALIB GEDİR BU KƏNDDƏN

Qardaşım İDRİSƏ

Dedin ki, bu kənddə kişi qalmayıb,
-Kişilər baş alıb gedir bu kənddən.
Baxıb arxasınca əzizlərinin,
Qəlbləri qoşulur gedir bu kənddən.

Kişilər baş alıb gedir bu kənddən,
"Allaha təvəkkül"-deyib gedirlər.
Boynu əyri bitən bənövşələrin
Bir az da boynunu əyib gedirlər.

Kişilər baş alıb gedir bu kənddən,
Köçəri quşlar tək köçüb gedirlər.
Doğma yerlərindən qəriblər kimi,
Qəbrinin üstündən keçib gedirlər.

Doğma yerlərində qərib kişilər,
Qərib ölkələrə çıxıb gedirlər.
Haqqı dar ağacda görən kişilər,
Dişini dişinə sıxıb gedirlər.

Dişini dişinə sıxan kişilər,
Dərdi ürəyinə yığan kişilər,
İçində ağlayır, içində gülür,
Çörəkçün yollara çıxan kişilər.

Çörəkçün yollara çıxan kişilər,
Qarın başınızdan aşağıdadır!
Qoroyun, qoruyun papağınızı,
Papaq başımızın yaraşıqıdır.!

MÜZƏFFƏR KİŞİNİN ÜÇÜYDÜ

Əlli səkkiz yaşında davaya könüllü gedib
Qarabağda şəhid olan Müzəffər kişiyə

Evdəkilərdən gizli
Müzəffər kişi
Qarabağa
Zövlədən könüllü getdi.
Mən onda kənd uşaqlarına
ədəbiyyatdan dərs deyirdim.
Vətən sevgisindən, el qeyrətindən
danışırdım,
Deyirdim: "Vətən mənə oğul desə,
nə dərdim..."
Gülürdü onda kənd uşaqları...
Bax onda davaya getdi,
Məndən düz otuz yaş böyük,
on uşaq atası Müzəffər kişi.
Sözünü sinəsinə sıxdığı
tüfənglə dedi.
Oğlanları yaşında olan
əsgərlərlə səngərlərdə
ürəyini yedi.
On uşaq atası Müzəffər kişi
Allahın bir xoş günü
davadan gəldi bir gecəlik
oğlu Rövşənin toyuna.,
cəbhə dostlarıyla,
Əsgər paltarında,
sinəsində nişanları.

Sevincindən uçurdu onda
Müzəffər kişi.
Ona çox yaraşırdı əsgər paltarı.
Elə bil dava üçün doğulmuşdu,
zəhmliydi, çevik idi, sərt idi.
Müzəffər kişi oğluna xeyir-dua verib,
onu təbrik edəndə
üzü gülsə də,
Gözləri yaşarmışdı onda.
Nəsə ürəyinə dammışdı onda.
Amma çox yaraşırdı ona
Əsgər paltarı...
Gözləri yaşarsa da
üzü gülürdü.
GÜLÜŞÜ sanki üsyan idi,
Atəş idi.
Əgər mən ölsəm,
Məni,
Əsgər paltarında basdırın- dedi...

Müzəffər kişinin üçüydü dünən,
Qızlarının naləsi
Səsini batırmışdı mollanın.
Yas yerinə yığışan
kənd cavanları,
utana-utana
sarı bozbaşını yeyirdilər.
Müzəffər kişinin
Oğlunun toyundakı gülüşü
sifətlərinə
Şillə kimi dəyirdi

On uşaq atasız qalmışdı.
Müzəffəfr kişinin üçüydü dünən.
Toy çadırı yas üçün qurulmuşdu.
Əsgər dostları,
Qızlarının göz yaşları kimi
sıraya düzülmüşdü.
Hamı başını aşağı dikmişdi,
Bozbaşına baxırdı-
sapsarı bozbaşına.
Səsləri də çıxmırdı.
Yalnız kasadakı qaşıqlar
pıçıldaşırdı,qaşıqlar-
Qalxıb enən qaşıqlar...

MƏNİM ŞEİRLƏRİM

Mənim şeirlərim-körpə gülüşü,
Körpə sevincidir, körpə qəmidir.
Mənim şeirlərim hələ yol gələn,
Qar altda göyərən çiçək kimidir.

Qar altda göyərən çiçək sözlərim,
Dibçəkdə böyüyən gülə oxşamır.
Mənim şeirlərim Vətəndən uzaq,
Vətənə boylanan qərib axşamı...

Qürbətdə yaşayan qar çiçəyitək
Səsinin ətrinə qısılıb qalıb.
Payızda ağlayan ağaclar kimi
əlləri göylərdən asılı qalıb.

Qar altda göyərən qar çiçəklərim,
Gedib gül açmadı yar sinəsində.
Zülmət gecələrin şamına döndü,
Əriyə-əriyə qar sinəsində.

AYPARA BALTA

Yaman təriflədin özünü dünən,
Ağlıqdan dəm vuran qaraçı kimi.
Dedin ki, hər bahar çiçəklənirsen,
Tutduğu yolları qar açan kimi.

Deyəsən ilhamdan mayan çox dəyib,
Onunçün başında şeir qıcqırır.
Acımış xəmir tək tabağa yatmır,
Hətta gözlərin də şeir qışqırır.

Təzəcə yoğrulmuş kündə kimisən,
Hələ bişməmisən söz təndirində.
Yanıb səhərəcən sən zülüm-zülüm,
Külə dönməmisən öz təndirində.

Sürünüb gəzirsen səssiz-səmirsiz,
Yərdə buludların kölgəsi kimi.
Sözün də sənintək göbək bağlayıb,
Soyumuş təndirin külfəsi kimi.

Tanrı yazısına gözünü yumub,
Gözümə tutursan cızmaqaranı.
Arada dostlarla "uçub", deyirsən,
Söz ki var, Allahdan əvvəl yaranıb.

Qudurmuş köpəyin quyruğu kimi,
Boynunda qapqara xalta yellənir.
Sən hardan biləsən, başının üstə,
Bir gümüş aypara balta yellənir.

XALQIN ŞAİRİNDƏN SARAY ŞAİRİ...

Dedilər; gəl qatıl söz yarışına,
Çəkilib kənarda qala bilmədim.
Yava vəzirlərin yava gözündə,
Mən “xalqın şairi” ola bilmədim.

Mən “xalqın şairi” ola bilmədim...
Ağrıtdım başımı mən hədər yerə.
Ayaqmı sürüşdü, ağılmı çaşdı,
Düşdüm bu oyuna göz görə-görə.

Gördüm oyun gedir, qızğın bir oyun...
Kim kimə kəp gəlir, kim kimi satır,
Kim kimin altından çəkir həsiri,
Kim kimin yerinə yıxılıb yatır.

Bu da bir oyunmuş, qumar oyunu...
Münsiflər kart sıxır qumarbaz kimi.
Biri də arxadan qoşa Tuzları,
Ötürür onlara sehirbaz kimi.

Hərə öz kartını tutub gözünə,
Nə xalqı düşünür, nə də şairi.
Xalqı ələ alıb sındırmaq üçün,
Bax belə seçirlər hədəf şairi.

O yanda Nəsimi yeyir içini,
Soyulur yenə də Haqqın haqq səsi.
Abdal Gülablıda məzar daşları,
Səsinə səs verir Qulu Ağsəsin...

İlahi, özün bax, qərarını ver,
Gör hara çəkirlər, hara şairi?!
Oynada-oynada sıxıb, süzürlər,
“Xalqın şairi”ndən saray şairi...

27.11.2017, Ufa

YUXU

Yuxuma gəlmişdi Məmməd İsmayil,
Gördüm yavaş-yavaş yan keçir məndən.
O keçib getdikcə mən üzülürdüm.
Elə zənn edirdim can köçür məndən.

Gedirdi ruh kimi, səssiz-səmirsiz,
Gedirdi İlahi sözün içində.
Fikirli-fikirli nəsə deyirdi,
Nəsə anladırdı hüzün içində.

Üzürdü yenə də söz dənizində,
Qayığa dönmüşdü ayıq gözləri.
Coşub Xəzər kimi qanadlanırdı,
Vətənə boylanan qıyıq gözləri.

Bəlkə baxışıyla nişan verirdi,
Başımız üstündə hedə-qorxunu.
Saçının dumanı xatırladırdı,
Tanrısı saz olan Dədə Qorqudu.

Tale didərgini bir Dərviş kimi
Qürbətdən qürbətə çıxıb gəlmişdi,
Dünyanın dərdini göy üzü kimi,
Bulud gözlərinə yığıb gəlmişdi.

Gəlmişdi, yenə də dönüb gedirdi,
Bu qürbət taleli qəribə şair.
Günəşi yurduna qaytarsın deyə,
İndi də gedirdi qüruba şair-
Bu qürbət taleli qəribe şair.

BU PAYIZ QÜRBƏTDƏ BİR AĞAC ƏKDİM

Dostum, professor Elçin İsgəndərzadəyə

Bu payız qürbətdə bir ağaç əkdim,
Üfürə-üfürə bir şitil kimi.
Öpüb əzizlədim yarpaqlarını,
Tanrıdan aldığım yüz ödül kimi.

Açdı yaylığını qaragöz bulud,
Günəşi bələyə alıb apardı.
Ölmüş yarpaqları yerdən qaldırıb,
Küləklər bir layla çalıb apardı.

Şairlər qələmə sarıldı həmən,
Varaqlar utanıb içini çəkdi.
Vətəndən didərgin qərib quşlara,
Mən isə, qürbətdə bir ağaç əkdim.

Mən isə qürbətdə bir ağaç əkdim,
Allahın adına bir dua kimi.
Asdım ürəyimi budaqlarından,
Yolunu gözləyən bir yuva kimi.

Həsrətlə boylandım Vətənə sarı,
Gördüm dəftərində yenə yox adım.
Bir adam tapmadım burda, İlahi!
Durub bu ağaca, şeir oxudum...

***

Hazırda zindan həyatı yaşayan şair qardaşım Saday Şəkərlinin "Sözün varmı?" şeirinə cavab

Mən göylərdən gələn adam,
Adamlara sözüm yoxdu.
Şeir mənim taleyimdi,
Başqa alın yazım yoxdu.

Gəl qonaq ol, köhnə dərdə,
Tanrının durduğu yerdə.
Sərhəd boyu səngərlərdə,
Səbrim daşıb, dözüm yoxdu.

Yatır məmnun, şən dirimiz,
Ölülərə tən dirimiz.
Yanmır üsyan təndirimiz,
Alovlanan közüm yoxdu.

Halal olsun Söz payına ,
Haqdan gələn harayına .
Nə hördüyün sarayına ,
Nə tacına gözüm yoxdu.

Qaldım qürbət qırağında,
AZAD VƏTƏN sorağında.
Param-parça torpağımda,
Yaşamağa üzüm yoxdu.

28.08.2015, Ufa

YALAN ADAM

Bəsdi bu dünyaya çirkab atdığın,
Çirkablar içində çırpınan adam.
Köhnə həsir kimi ildə bir dəfə,
Bayramdan bayrama çırpılan adam.

İt kimi Can verir söz qələmində,
Dadı yox, görünmür duz qələmində.
Güya at çapırsan söz aləmində,
Hər gün ulaq kimi çapılan adam.

Nə yaxşı kölgəli ağac deyilsən,
Kəsilmiş barmağa əlac deyilsən.
Nəsimi deyilsən, Həllac deyilsən,
Yepyeni qayrılmış çul-palan adam.

Deyirsən, şairsən, söz adamısan,
Bu əyri dünyanın düz adamısan.
Sən şeytan qağanın öz adamısan,
Öz şeytan nəfsinə qul olan adam.

Axır ki, sən adam ola bilmədin,
Şair tək yaşayıb ölə bilmedin.
Dünyaya nə verdin, ala bilmədin,
Təpədən dırnağa, ay yalan adam?!

payız, Ufa

MƏN ŞƏHİD SÖZLƏRƏ YAS SAXLAYIRAM...

“Mənəm-mənəm” yedi sözün başını,
Sözün yaxşısını, sözün başını.
Hələ bişirməmiş söz bozbaşını,
Çəkib ortalığa qoyanlarım vay.

O kimdi, söz deyir, üzü örtülü,
Qalıb dal sırada başı dürtülü.
Bulayıb quyruğu, alıb ödülü,
Şellənib döşünə döyənlərim vay.

Söz gəldi, sədləri qırıb elədi,
Bizim içimizi görüb elədi,
Çəkilib qürbətə qürub elədi,
Özünü göylərdə sayanlarım vay.

Qan verir sözlərin özülü daha,
Haqqın da boğazı üzülü daha.
İndi şeir yazmır Füzuli daha ,
Sözü Nəsimi tək soyanlarım vay.

Sinəmdə bir sınıq saz saxlayıram,
Demirəm hər sözü, üz saxlayıram,
Mən şəhid sözlərə yas saxlayıram,
Yeyib bozbaşından doyanlarım vay.

12.12.2014, Ufa

QADIN

Qadın da hardasa şeir kimidi,
Gözəl misraları, hecaları var,
Səni xoşbext eden şirin sözlərin,
İçində gizlənən acıları var.

Nədənsə arada tutar tərsliyi,
Günlərlə gəzərsən qafiyəsini.
Qəlbinin evinə yola düşəndə,
Geyinər məleykə qiyafəsini.

Baxar gözlərinin ucuyla qadın,
Görər ürəyindən gəlib-keçəni.
Havası başına gəldimi onun,
Şeir tək yatmağa qoymaz gecəni .

Hərdən gözlərinin içinə baxar ,
Oxşadar bir gümüş güzgüyə səni.
Özünü qəlbində tapmasa, sınar,
Gedib axtaracaq özgədə seni.

Uçub arxasınca dartınar gözün,
Hicran alovunda yanar əllərin.
Küsdümü, geriyə qayıtmaz qadın,
Durna qatarına dönər əllərin...

payız, Ufa

BALOĞLAN HAVASI

Məni səndən soruşsalar, deyərsən,
Hələ də gözləri məndədi onun.
Özü qərib-qərib qürbəti gəzir,
Bənövşə ürəyi kənddədi onun.

Gül əkdi, dərdiyi dərd-kədər oldu,
Ömür boşa getdi, gün hədər oldu.
Dərbədər dolandı, dərbədər oldu,
Başı dumanlarda, çəndədi onun.

Sinəm ürəiynin, eşqinin yeri,
Aşıb keçəmmədi kəbin-kəndiri.
Bir təndir qaladı, həsrət təndiri,
Misralar əlində kündədi onun.

Əlim əllərinə enib bitmədi,
Baloğlan havası çıxıb getmədi.
O da sevdasına yerdə yetmədi,
Bütün fikri-zikri göydədi onun.

SÖZ VERDİM

Söz verdim, bir daha şeir yazmayım,
Nə fikrə qapanım, nə sözə uyum.
Əlimdə yarımçıq qalan işləri,
Bir az səhmanlayıb yerinə qoyum.

Söz verdim, durmadım sözümün üstə,
Asıldım tavanda çilçıraq kimi.
Qələmim dözməyib söz üsyanına,
Sancıldı varağa ağ bayraq kimi.

...Söz verdim, dərdindən yazmayım daha,
Göz yumum Qarabağ ağrına sənin.
Arada gözümdən düşürsən, Vətən,
Qaldırıb sıxıram bağrıma səni..

Sən axı günahsız körpəsən hələ,
Cənnət ətri gəlir gül əllərindən,
Hələ baş açmırsan böyük qardaşın
Sənə bəslədiyi güllələrindən...

***

Menimçün şərab-Sən!
Şərab süz gözlərindən.
Mən içməyi, çəkməyi,
Canımdan keçməyi
Tərgitsəm də, səndən keçməyi -
Səni içməyi, sənə köçməyi tərgidə bilmədim,
bağışla!
Bağışla, bu gün də səni içirəm;
Su kimi,
Hava kimi,
Dərdimə dəva kimi...
Ay işığında,
Yaz yağışında,
Elə bu yağan qarın yaraşığında,
Səni bir nəfəsə,
Başıma çəkib içirəm.
İçirəm yüz illik
Xatirə şərabı kimi.
Dodaqların -
Hələ kilidi,
Dili tapılmayan "Şəbi-hicran" qəzəlindəki
İkicə misra kimi
Şirindi.
Sən şeir yazmasan da,
olar.
Arada elə şəklini paylaş,
Bəsimdi...

MƏNƏ ŞEİR GÖNDƏR

Mənə şeir göndər şəkil yerinə,
Öz səsi, nəfəsi, öz dili olsun!
Misralar içində döyünən qəlbi,
Bənövşə üzündə söz tülü olsun.

Dil açib danışsın duyğularından,
Görüm ürəyində nələr baş verir.
Bəzən doğmaların gizli tutduğu,
Sənə uzaq olan qərib quş deyir.

Mənə şeir göndər şəkil yerinə ,
Köhnə nağıl kimi uzun olmsın .
Nə zalım şahları görünsün gözə .
Nə də göy üzündə qızıl alması.

Mənə şeir göndər, sadə, şıdırğı...
Yazda qəfil yağan yağışlar kimi.
Uyuyum sözlərin şırıltısına,
Bulaq kənarında saf daşlar kimi.

Mənə şeir göndər şəkil yerinə,
Pərvanə çağıran işığı olsun,
Hər şeydən yüksəkdə uçuşan ruhu,
Bircə Allahımdan aşağı olsun.

27.06.2015, Ufa

SÖZÜNÜ GÖZƏ ÜFÜRÜR

Allahın səbri böyükdü,
Yaxın vədi qırx il çəkir.
Dua oxuyan bəndəsi
Elə bil ki, şəkil çəkir.

Ah çəkir, özü odlanır,
Sözünü gözə üfürür.
Qalxır sözünün üstünə,
Bir az da gözəl üfürür.

Üfürür qohum-qardaşı,
Tutub sözünün ucundan.
Üfürdükcə söz böyüyür,
Qalmır sözün can canında.

"Can" sözünə can vermədi,
Can söyləyir a..."zər"inə.
Gördü hamı söz üfürür,
Tutuldu söz azarına.

Tacı kimi başı durmur,
Üfürdüyü sözə yiyə.
Əllərini yerdən üzüb.
İndi də qaldırıb göyə.
Göy üzündə Allah durur,
Səbri də ki, qırx il çəkir.
Qarabağda yad gülləsi,
Hər gün rəngli şəkil çəkir.

VAXT EDİB YAZMADIĞIN SÖZLÜ ŞEİRLƏR

İtirdiyin başını alarsan əllərinə,
Gəzərsən dəvəsini axtaran ərəb kimi.
Üzünə mələkləri gülsə də məmləkətin,
Bir gün çəkəcək səni meydana Hələb kimi...

Bir vaxt könlündən keçən qadınlar keçib gedər,
Gedər başının üstdən qərib durnalar kimi.
Bir yandan da beynini kotan kimi şırımlar,
Qürbət limanlarında ayrılığın yelkəni.

"Gəl-gəl"-deyər uzaqdan qos-qoca Qız Qalası,
Bakı sehirbaz kimi tutub sehirlər səni.
Daim edam edəcək Azadlıq meydanında,
Vaxt edib yazmadığın sözlü şeirlər səni.

Sonsuz bir qəhər kimi tıxanar boğazına,
Zindanda inildəyən torpağın ah-vayları.
Qürbət nəğmələrində ancaq qələbə çalar,
Meydanlarda uyuyan Vətənin bayraqları.

Bir andaca gülüşün çiliklənər üzündə,
Axar damarlarına qəlbindən qara qanlar.
Dünyanı bürüyəcək istiqlal dalğaları,
Zəncirini qıracaq dustaqdakı meydanlar...

Tutub qəlbini sıxar qəribliyin sancısı,
Gözlərin həsrət çəkər bir ata ocağına.
Dərdini dağıtmağa bir adam axtararsan,
Pıçıldayar dodağın gecə yazdığın şeiri,
Zilləyib gözlərini bir qayın ağacına...

Ufa

ALNINDA BİR ŞEİR YANIR ŞAM KİMİ...

Yenə şirin-şirin yatırsan indi ,
Saçın da dağılıb balışın üstə.
Yatırsan, südəmər körpələr kimi,
Mələklər dolaşır başının üstə.

Köynəyin nə gözəl qara bələnib,
Nə gözəl yaraşır ağ çiyinlərə.
Bir nazik məxməri qara tor hörüb,
Qardan baş qaldıran göyərçinlərə.

Alnında bir şeir yanır şam kimi,
Əriyir üzündə dodaq izləri.
Bir az açıq qalan dodaqların ,ah...
Sanki öpülməyə dodaq gözləyir .

Bəlkə bu yatdığın heç yuxu deyil ,
Sənin Allahınla görüş yerindi.
O İsmi-pünhana məndən də danış,
Qoy yazsın alnına öpüşlərimi .

Qoy bilsin hər gecə nələr çəkirəm .
Sənin pəncərəndə pərdələr kimi .
Sən mənim əlçatmaz bir vətənimsən ,
Gəzirəm dünyanı dərbədər kimi.

02.05.2017, UFA

QÜRBƏTİN DADI

Mən qürbətdə nələr çəkdim?
Çəkdiyim hər bir ah bilir.
Nələr çəkmədim qürbətdə,
Bircə onu Allah bilir.

Allah bilir, mən bilirəm;
Qürbət nədir, qərib nədir.
Qəriblikdə keçən günüm,
Hər biri bir qərinədir.

Bir anasız vətən kimi,
Yər də, Göy də qürbət dadır.
Allah da gözə görünmür,
Bəlkə o da qürbətdədir.

Bəlkə o da qürbətdədir -
Su üstündə pampıq kimi.
Hər gün batır gözlərində,
Ümüd dolu bir ağ gəmi.

Göz dikdiyim Xəzər-qərib,
Ruhumun göy qanadıdır.
Üzü gülən məmləkətəm,
İçim Hələb meydanıdır.

12.02.2017, Ufa

BİR GÜN GƏLƏCƏKSƏN...

Sənə "ana" -deyib, öpdüm telindən,
Heç dönüb baxmadın üzümə, Vətən!
Qoynunda nə mənə bir yer ayırdın,
Nə mənim oğluma, qızıma,Vətən!

Bu yarı ömrümü yarı elədim,
Çör-çöpdən bir yuva qurub elədim.
Üz tutub qürbətə qürub elədim,
Bir də qayıtmadım özümə, Vətən!

Qaldın umuduna köhnə palanın,
Haqqı-ədaləti kölə yalanın...
Başında çatlayan min bir bəlanın
Düşdü ağırlığı sözümə, Vətən!

Elimə, obama qış yenə döndü ,
Soyudu bu dünya, düşmənə döndü .
Qardaşdan "qar" gəldi, "daş" mənə döndü,
Qar yağdı bu alın yazıma, Vətən!

Mən kiməm, nəçiyəm, bilə bilmədin,
Dostam, ya düşmənəm, hələ bilmədin.
Toy günü toyuma gələ bilmədin,
Bir gün gələcəksən yasıma, Vətən!

09.02.2016, Ufa

DÜZƏLƏN DEYİLSƏN

Sən canım, gözümü yağır eləmə,
Bir az insafa gəl, düş divarımdan.
Allahı sevirsən bircə günlüyə,
Əl çək cana doymuş daş divarımdan.

Çəkmə gözəlliyin üzünə pərdə,
Yorğun gözlərimin içindən çəkil.
Bu şirin dünyanı gözümdən salır,
Hər gün bir pozada çəkdiyin şəkil.

Yalan təriflərin ustası kimi,
Eşitdim almısan ödül payını.
İndi də şəklinlə qoşa qoyursan,
Gah şahı, gah da ki, şah sarayını.

Sən ki qız deyilsən, kişisən axı,
Yaşın da ... nə deyim, o yaşın deyil.
Baxıram yazdığın cızmaqarana ,
Orda da tərpənən öz başın deyil.

Bu gün də mən səni gördüm divarda,
Gördüm, dümdüz yolu əyri gedirsən.

Gözlərin o qədər qızışıb sənin ,
Hətta Füzulini inkar edirsən.
Səni and verirəm qürbətdə axan,
İmam Nəsiminin şəhid qanına.

"Mən şair deyiləm, atam-qardaşım" -
Hayqıran Məmmədin qərib canına,
Bir az insafa gəl, insafın olsun,
Cıx mənim gözümdən, gözüm ağrayır.

Sənə söz deməyə üzüm də gəlmir,
Daha dözəmmirəm, üzüm ağrayır.
Bu əyri dünyanın əyrisi kimi,
Onsuz da düzələn deyilsən daha.

Bircə xaişim var, sözdən uzaq get,
Səni and verirəm böyük Allaha...

BORCLU BORCLUNUN SAĞLIĞINI İSTƏR

Bağışlayın, məni şeirlərim,
sizi bir neçə saata unudası,
atası olaram.
İnciməyin məndən, küsməyin.
Xəzərdə Sarı adası kimi,
dörd yandan üstümə sürünən
dərd dalğalarına
sığal çəkməyim,
Allahın yanında diz çökməyim,
dil tökməyim var...
Ürəyim bir dəniz,
ciblərim tərtəmiz
boşalıb axı...
Həm də bir az Andreyə,
bir az İvana,
bir az da Kürən Kərimə pul borcum-
əl borcum var.
Eh, Allah Kərimdi-deyirlər,
Ancaq Kərim Allah deyil,
şeirlərim,
Kərim Allah deyil.
Bağışlayın məni, şeirlərim,
qanınız qaralmasın, gözünüz saralmasın .
Sizə də borclu qalıb gedirəm.
Hələ vaxt edim yazmadığım.
şeirlərim,
bağışlayın məni,
borclu borclunun sağlığını istər.

***

Səsin gəlmir, ay qız niyə,
Çəkildinmi yoxsa göyə?
Boylananda Ay-güzgüyə,
Məni orda görürsənmi?

Aydan arı, sudan duru,
Adamlarmı səni qırıb?
Mənim kimi qərib-qərib,
Sən də ömür sürürsənmi?

Dünya qərib axşamıdı,
Göz yaşları ağ şanıdı.
Kimsə məni oxşamadı,
Xəbərin var, bilirsənmi?

***

Mən şeirlərimdə yaşayıram,
Söz-söz, misra-misra...
Söz-söz, misra-misra
Mən şeir yazanda
Yaşayıram!
Mən şeir yazanda
Xoşbəxt oluram.
Son misrasını yazıb bitirəndə isə,
Xoşbəxtlikdən uçuram.
Uçuram Adam kimi.
Bunu bircə Allah bilir,
Bir də mən.
Başqa heç kəs.
Heç kəs görmür və bilmir,
Mən şeir yazanda,
Xoşbəxt oluram...

***

Yağış yağır...
Eşidirsən səsini,
Necə yanıqlı-yanıqlı oxuyur?
Elə bil bizdən danışır.
Yarpaqların gözündə işıldayan
damcılar sənin göz yaşlarındı,
Mənim-çırpınan ürəyim.
Yağış-üzümə səpələnən yumşaq tellərin,
Necə də ətirli və dadlıdır.
Əllərin əllərimdə quş kimi çırpınır,
Damcılar çılpaq budaqların ovcundakı kimi.
Eşidirsən səsini?
Bizdən, payızdan danışır.
Çiçəklərin, otların
qulağına pıçıltıyla
dediyindən bizə də dəyir.
Eşidirsənmi? ...
Necə döyünür damcılar.
Damcılar elə bil ürəkdir...

ƏLİMİN DUZU

Daha adamlara inam qalmadı,
Açıb söyləyəsən kimlərə dərdi.
Nə sözə sığışır, nə saza yatır,
Çəkib yükləyəsən simlərə dərdi...

Kimə əl uzatdım, əlimi kəsdi,
Əriyib yox oldu əlimin duzu.
Sən demə başını sığalladığım,
O fağır qonşunun varmiş buynuzu.

Daha ağaclardı qan qohumlarım,
Daha onlar qədər yaxınım yoxdu.
Elə o ağacda tikdiyim evi,
Mələk paltarında adamlar yıxdı.

Elə o ağacda o yuva kimi,
Uçub gedəcəyəm günün birində.
Ürəyi didərgin köçəri quşlar,
Gəlib yuva qurar çiyinlərimdə.

Sənin də buynuzun axır ki, çıxdı,
Açıldı gözlərim, Allaha şükür!
Nə səni öldürdüm, nə dara çəkdim,
Dərin bir ah çəkdim, o aha şükür!

30.07.2015, Ufa

SƏNİN PƏNCƏRƏNDƏ GÖYƏRƏN AĞAC

Bu körpə, balaca, inadkar yolun
Kökü gözlərimin yaşını dərib.
Döşənib ayağın altına sənin,
Sənin pəncərəndə gəlib göyərib.

Sənin pəncərəndə göyərən ağac
Hər gecə dəhşətli yuxular görür.
Yastığın üstünə dağılmış saça,
Yorulmuş qoluna baxıb hönkürür...

Gecə köynəyinin yaxası açıq,
Bəyaz göyərçinlər az qala uça.
Sanki qəfəsindən çıxmaq istəyir,
Qoşa qanadları gərilib azca.

Pəncərən önündə bitən ağacın
Hər səhər quruyur qol-budaqları.
Həsrətin çəkməkdən çəkilib suyu,
Dur götür baltanı, qır budaqları.

SEVGİDƏN DANIŞMA

Nə olar, sevgidən danışma mənə,
Nə olar, bir qədər susaq bu gecə.
"Sevirəm" sözünü nəfəsimizlə
Suda balıqlar tək yazaq bu gecə.

Yenə əvvəlkitək duraq üz üzə,
Üz üzə söykənib alışsın bir az.
Əllərin əlimlə, gözün gözümlə,
Dilin də dilimlə danışsın bir az.

Uçub bu yerlərdən gedək bir yolluq,
Qərib quşlar kimi qanad qanada.
Saç saça qarışsın, baş başa gəlsin
Dodaq da dodağı əzib qanada.

Bax belə... adicə quşlar sayağı
Quraq bir güşədə öz bürcümüzü.
Sevgi borcumuzu qaytaraq orda,
Tanrıya verməyə can borcumuzu.

QADASI

Bəsdi, söz içində cabaladığın,
Tanrıdan bir sənət istə, qadası.
Kişilər doğruluq üstə döyülür,
Sən isə, oğruluq üstə, qadası.

Pəridən yazırsan, öz pərin yoxdu,
Ürək ovsunlayan söz pərin yoxdu.
Bu da bir dəryadı, xəbərin yoxdu,
Sən üzdə üzürsən, üzdə qadası.

Çıxdın, ululların sözündən çıxdın,
Axır paxır kimi qazandan çıxdın.
Sənə haqdan dedim, özündən çıxdın,
Haqdan gələn Sözə döz də, qadası.

Bilmirəm, fiziksən, ya da nə ziksən,
Ürəyi yumuşaq, qəlbi naziksən.
İçində zülməti gözünə çəksən,
Sənə həsəd çəkər qız da, qadası.

Deyirlər, ətrafın bir sürüdürlər,
Şikəst sözlərini tez yürüdürlər.
Şairlər söz üstə can çürüdürlər,
Sən də çürüyürsən sözdə, qadası.

Ürəyim od tutub, istimə gəlin,
Vurub göz çıxaran tüstümə gəlin.
Lap elə dədənlə üstümə gəlin,
Sizə saz da çalım, paz da, qadası.

09.05 2015, Ufa

***

Ruh qardaşım Anar Həbiboğlunun
əziz xatirəsinə

Qürbəti bürüdü bir qara xəbər;
Anar Həbiboğlu köçdü dünyadan,
Elə bil şeirin beli büküldü,
Yüz şair ürəyi düşdü dünyadan.

Sözlər yetim-yetim ağılar dedi,
Sevgi sarayları dağılar-dedi.
Mən ölsəm bu dünya sağalar dedi,
Tez getdi bu başı daşlı dünyadan .

O haqq aşiqiydi, saz götürmədi,
Sözü üzə dedi, göz götürmədi.
Söz altda qalmadı, söz götürmədi,
Başını götürüb uçdu dünyadan...

26.05.2016, Ufa

GƏZMİŞİK DÜNYANI
YARIMCIQ, YARSIZ..

Elə doğulandan gəzmişəm səni,
Elə sənin üçün mən doğulmuşam.
Hələ indiyəcən görüşməmişik,
Sənsiz yaşamışam,sənin olmuşam.

Gəzmişik dünyanı yarımçıq,yarsız.
Yarımız sıxılıb yarımçıq yarla.
Bir ömür sürmüşük ömrə yararsız,
Biz ömür sürmüşük quru divarla...

Uçub uzaqlara getmək istədim,
Dörd yerdən qarşımı kəsdi o divar...
Soyuq gözlərinə şeir söylədim,
Baxıb gözlərini döydü o ki var.

Baxıb gözlərini döyür hələ də,
Üzünün suvağı tökülüb gedir,
Daha sözlərimə dözə bilməyir,
Hər gün kərpic-kərpic sökülüb gedir.

***

Sən yenə,
sən yenə can alan gözlərinlə
və
bir ilahi şeirin
gözə çarpan
ən gözəl,
şipşirin
ikicə
misrası kimi
qan-qan deyən dodağınla
hücuma keçdin...
Hər şeyi alt-üst elədin-
həm öz yazdıqlarını,
həm də mənim şeirlərimi
Tüstülədi,
baş-beynim tüstülədi...

MƏN SƏNİ AĞLADIM ,
PƏRDƏLƏR MƏNİ

Görkəmli ziyalı-hüquqşünas
Bəxtiyar Cavadzadənin həyat
yoldaşının əziz xatirəsinə ...

Gəlmişdin ömrümə ağ çiçək kimi,
Eləcə ağ geyib ah çəkib getdin.
Əkib becərdiyin gül-çiçəklərə,
Bu evə, eşiyə dağ çəkib getdin.

"Sən getdin " - deyirəm, yox getmədin, yox
Sən gedə bilməzdin məndən xəbərsiz.
Mənsiz bircə addım atmazdın axı,
Səni apardılar səndən xəbərsiz.

Dənizdə dalğalar sahil boyunca,
Səni səslədilər bütün gecəni.
Mən də sərsəri tək gəzdim yolları,
Sənə oxşadırdım gəlib-keçəni .

Qəbrinin üstünə gəldim ruh kimi,
Saxlaya bilmədim göz yaşlarımı.
Üzümə boylanan başdaşındakı,
Şəklindən gizlədim baxışlarımı.

Sənsiz evə döndüm, bağışla məni,
Çəkilib bir küncə qısılıb qaldım.
Divarlar çevrilib dar ağacına,
Gözlərim tavandan asılı qaldı.

Yoxluğun sükutla verib əl-ələ,
Saldılar ruhumdan dərbədər məni.
Pəncərən önündə sabaha qədər,
Mən səni ağladım, pərdələr məni.

08.03.2016, Ufa

BƏNÖVŞƏNİ

Gözəllik ardınca dolanan könlüm,
Axtarıb tapdınmı yaz bənövşəni?
Dəmir çarıq geyib dünyanı dolan,
Ara bənövşəni, gəz bənövşəni.

Bənövşə-getdiyim bu yolun sonu,
Təpədən dınağa təmizlik donu.
Daim axtararam, gəzərəm onu,
İçində gəzsəm də yüz bənövşənin.

Qəlbimi yenə də bürüdü kədər,
Ömür hədər keçir ,deyəsən hədər.
Toxunsa əllərim özündən gedər,
Qalar yanağında iz, bənövşənin.

Onu dərmək günah, dərməmək günah,
Hər yaz yanağını görməmək günah...
Dizinə baş qoyub ölməmək günah,
Batım günahına qız bənövşənin.

O elə çiçəkdi, incədi, tərdi...
Yolunda Baloğlan başını verdi.
Qoy məni öldürsün bənövşə dərdi,
Dodaq mənim olsun, üz-bənövşənin.

ALLAHA ƏMANƏT

Canımdan ayrılıb ağ çiçək kimi,
Gedirsən, gözündə sevinc yaşları...
Gedişin Ay kimi çəkib aparır,
Yerdə adamları, göydə quşları.

Üzünə yaraşan ağ duvağ kimi,
Bu gözəl gecənin üzü də ağdı.
Şükür ki, bu toyun gəlini sənsən,
Şükür ki, Tanrımız üzünə baxdı.

Tanrı yazısıdı bu toy, u gecə,
Mübarək qələmlə yazılıb, qızım!
Oyna mələk kimi, incədən incə,
Necə ki, azlanır, "Vağzalı", qızım!

Sən elə oyna ki, sən elə süz ki,
Görənlər düşünsün, xoş bir xəyalsan.
Sən elə gülümsə, sən elə gül ki,
Desinlər, nə yaxşı südü halalsan...

Bu həyat gördüyün toy-büsat kimi ,
Hər kəsi bir cürə sınağa çəkir.
Vüsal məhəbbətin saf zirvəsidir,
Onun da körpüsü bu toydan keçir.

Sən də bu körpüdən keçib gedirsən,
Təki səni sevən bir ürək olsun.
Gedirsən, Allaha əmanət, qızım,
Gedirsən bu toyun mübarək olsun!

***

Sənin şəirlər kitabını oxudum, bu gəcə,
Amma bir şey anlamadım.
Əslində anladım,
Anladım şair olmadığını...
Yazırsan da, elə-belə -
"Qonşudan qalma dala"
Oxudum bu gecə,
bir şeir tapmadığım "şeirlər" kitabını.
Və körpə alnı kimi,
Ağ varaqların birində,
Bir şeir ah çəkdim,
Şeirə oxşayan bir şey.
Dedim, bu kitabda da,
Bir şeir olsun,
yazıqdı axı varaqlar...

***

Mən, az tanınan
imza yiyəsi-
Baloğlan Cəlil İdrisi,
böyük şairlərin gözündən uzaq,
bu yaz
Göydən enib,
çıxdım dağlara,
Üzdüm dənizində bənövşələrin.
Şükür edib Tanrının möcüzəsinə,
ürəyim doyunca
bənövşə dərdim...

MƏN ŞEİR YAZMIRAM, ŞƏKİL ÇƏKİRƏM

Hər gün dərdlərimin şəklini çəkib,
Sonra üz-gözünə sığal çəkirəm.
Başqa şəkillərə çəkməsin deyə,
Hər şəklin altında mən qol çəkirəm.

Mən şeir yazmıram, şəkil çəkirəm,
İlahi dərdlərin şəkillərini...
Görəndə çəkilməz əzab çəkirəm,
Cənnətdə cəhənnəm sakinlərini.

Nə Adəm, nə Həvva burda görünməz,
Yurdları ruhunu satana qalıb.
Mələklər çəkilib gedərgəlməzə,
Dünyanın cənnəti şeytana qalıb.

Hanı halal-haram, hanı tərəzi,
Bəlkə günahları çəkən səhv çəkib?
Bəlkə də Allahın xəbəri yoxdu,
Cənnətdə cəhənnəm əhli kef çəkir...

Bu da bir şeirdi, Göydən asılı,
Cənnətə cəhənnəm gəlib qarışıb.
Nə yaxşı arada dəyir gözümə,
Qürbətdən süzülən qərib bir işıq...

Mən kiməm, nəçiyəm, şeir uydurum?
Şeir Allahındı, mən də Allahın.
Mən yalnız şeirin şəklin çəkirəm,
Adını çəkirəm gündə Allahın.

SİNƏM AÇILMAMIŞ QALA QAPISI

Susub danışmayan qapı kimiyəm,
Kimsəyə zərrəcə xətərim yoxdu.
Ancaq o üzümdə nələr baş verir,
Dostların onlardan xəbəri yoxdu.

Dost əli əlimdən yapışmasa da,
Dərdləri tez gəlir tapır sinəmi.
Hərdən sinəsinə döyən tapılır,
Döyən tapılmayır qapı-sinəmi.

Susub danışmayan qapıyam-dedim,
Gözəl qapıların içində itən.
Mənəm içəridən sökülən qala,
Bir qala... tənhalıq içində bitən.

Sinəm açılmamış qala qapısı,
Çoxunu xoş üzüm-çölüm yandırır.
Hes kəsin içimdən xəbəri yoxdu,
Min ildir içimi içim yandırır.

QATARDA

İlahi, nə ola... möcüzə ola,
Bu qatar baş alıb gedə Vətənə.
Bir daha geriyə qayıtmaya kaş,
Son dəfə sonsəfər edə Vətənə.

Şütüsün hər yerdə dayanmadan qoy,
Qoy məni aparsın doğma ellərə...
Narahat qəlbimin çırpıntısını
Yetirsin ağlayan pəncərələrə.

Quşdan qanad alıb,küləkdən nəfəs
Uçum o yerlərə bircə qırpıma.
Sürtüm üz-gözümü qanıyanacan
Mənim əllərimə həsrət qapıma.

Gözləri yol çəkir həyət-bacamın
Gedir öz yerinə, yurduna qatar.
Mənsə öz-özümdən uzaqlaşıram,
İlahi,sən məni özümə qaytar.

DÜNYA OĞRULARIN ƏLİNDƏ İDİ

Hər gün döyülməkdən canım ağrıyır,
Ağrıyır əllərim, çiynim, kürəyim.
Hər gün gözəlliyə nəğmələr qoşan
Ürəyim yadımdan çıxır, ürəyim.

Ürəyim yadımdan çıxır, ürəyim,
Qorxuram yadımdan çıxa, daşlaşa.
Gərək ürəyimi ağlayım bir gün,
Qəmli sözlərimlə verib baş-başa.

Ancaq ağlamağa zaman da yoxdu,
Zaman günlərimi biçir oraqla.
Mənim öz komamı öz əlim yıxdı
Düzəltmək istəyir indi araqla.

Ürəyim yadımdan cıxır,ürəyim
Daha sözlərim də ürəyə yatmır.
Qırx ildir bir ümid mənı aldadır,
Qırx ildir əllərim Allaha çatmır.

Hər gün yavaş-yavaş daşa dönürəm,
Hər gün daralmada keçdiyim keçid.
Dünya oğruların əlində idi,
Dünya oğruların əlinə keçib...

CANIM YAMAN AĞRIYIR

Bu duzsuz, dostsuz şəhərdə
Çamursuz, tozsuz şəhərdə
Hamı bir-birinin
Sağlığına içir,sağlıq deyir,
Tost deyir.
İçir hamı.
Hamı içir bir–birinə dost deyir.
Dostu düşmənindən bilinməyən
Bu şəhərin qadınları-varı,
Barmaqları-arı kişiləriylə
əriylə çiyin-çiyinə
qədəh qədəhə
qəhqəhə vurub içirlər,
yıxılır neçə ər...
içləri alışıb yanır,
qarışıb yanır...
qarşı-qarşıya dayanıb oynayır.
Göz oyunu, söz oyunu başlanır.
Toz oyunu başlanır,
Toz qalxır.
Toz qalxır göyə kimi.
Göz kəlləyə kimi.
Göz gözü görmür,
Göz tozu görmür.
Hamı göyə baxır,
Göydən baxan gözü görmür.
Hamı töz qoyur,

Yaşamağa üz qoymur.
Üz əriyir, üz qalmır.
Qız qalası gürünməyən bu yerdə
Üz qalmır,
Üz açılır.
Göz qalmır, göz açılır
Söz qalmır, söz açılır
Alnım yaman qaşınır...
Yəqin o göz açılır.
Aç gözümü Tanrım,
Aç gözümü-
Aç sözümü, gözümə əlac,
İşığa ac-ağac sözümü.
Çəkilim kölgəsinə -
Ağaclar ölkəsinə,
Canım yaman ağrıyır.

ƏRİYİB GEDƏRDİ GECƏ ŞAM KİMİ

Yuxun şirin olsun-deyərdin mənə,
Hər gecə yuxum da şirin olardı .
Gecə köynəyində sabaha qədər,
Mən Fərhad, sən isə Şirin olardın.

Ulduzlar yığışıb enərdi yerə
Saçlarln sinəmə dağılan çağı,
Gəlib əllərimə əsir düşərdi,
Bənövşə ətirli Bisütun dağı.

Gözlərin axardı süd arxı kimi,
Axardı alnına, can ala-ala,
Səni dodaq-dodaq alıb içərdim,
Masamda şərabla cam ola-ola.

Hər nəfəs dərdikcə tər nəfəsindən,
Közərmiş üzünü od götürərdi .
Mənim göydə uçan qanadlarıma,
Saçının dalğası od ötürərdi.

Çəmən pıçıltılı kəpənək təki,
Əllərin köksümə qonaq qonardı.
Əriyib gedərdi gecə şam kimi,
Elə bil sinəmdə ocaq yanardı.

Gözü yol çəkərdi Ulum çayının,
Gəlib yetişəndə ayrılıq dəmi.
Sənin pəncərəndə günəş doğardı,
Əriyib gedərdim mən də şam kimi.

05.03.2018, Ufa

YALANDAN ÜZÜMƏ
GÜLÜMSÜNÜB GET

Sən məndən ayrılıb getmək istəsən,
Gəl öpüm üzündən sonra dönüb get.
Alıb boğçasını xatirələrin,
Yalandan üzümə gülümsünüb get.

Yalandan üzümə gülümsünüb get,
Həm özünü aldat, həm də ki məni .
Guya bu ayrılıq ürəyincədi,
Guya heç sevmədin məndəki məni.

Guya Ulum sənin gözündən axmır,
Guya sən Ulumda axıb gedirsən.
Məktəbli qız kimi hörüklərini,
Yellədə-yellədə çıxıb gedirsən.

Mən də gözlərimi büküb dəsmala,
Sevgi məktubu tək göndərim sənə.
Tutub əllərindən sənli günlərin,
Xatirə-xatirə gül dərim sənə.

Elə çıxıb get ki, yol inciməsin,
Qoy səni bir daha geri gətirsin.
Səni gözlərimin üstə qoymağa,
Mənim kipriklərim geri götürsün.

23.03.2018, Ufa

K İ T A B D A K I L A R

Bənövşə qoxulu qürbət şeirləri..... 3
Unudulmaz məktub..... 6
Qara çəkmələr..... 7
Heyva ağacı..... 8
Kor bağırsaq…..... 9
Xoşuma gəlir yastığım……..... 11
Bu gecə…….... 12
Ömürlük sürgün..... 13
Yelləncək..... 14
Sabahdan güləcəm……..... 15
Sən getdin…..... 17
Ezopa..... 18
Xəstəxanada…..... 19
Allah üzümüzə baxdı..... 21
Ağaclar yelləyir sarı yaylığı..... 22
Daşınır Vətən..... 23
Deyirlər, dünyanı su alar bir gün……..…….. 24
Unudulmaz cənnətim..... 25
Gəl..... 26
Bənövşə-5……..... 27
Yaşayır..... 28
Baloğlan havası..... 29
Sən düşdün tarixə..... 30
Kəbin kəndirimiz göydə kəsildi..... 31
Sənin bu gecədə nə işin var?..... 32
Mən-Baloğlan Cəlil İdrisi..... 33
Kimsəyə demə..... 35
Türk bayrağı..... 36
Atəşkəs..... 38
Nə yaxşı bu evin pəncərəsi var..... 40
Ürəyimə damıb..... 41

Dünya qərib axşamıdı..... 43
Şeir kefdən yaranmır..... 44
Könül vermərəm özgəyə..... 45
Bəndə tək..... 46
Yolumuz bir idi..... 47
Dünya şirindi..... 48
Tərəzidi dünya..... 49
Bənövşə-6..... 50
Qıvrılan sükut..... 51
Özümdən özümə bir yol salmışam..... 53
Pəncərədən daş gəlir..... 54
Gecələr..... 56
Mən şeir yazanda şair oluram..... 58
Sinəndə arxayın gəzirik, Vətən..... 59
Ay bulud..... 60
Ağrı…..... 61
Bənövşəni (Qurbaniyə Nəzirə)..... 62
Bənövşəni (Məmməd Aslana)..... 64
Bənövşəni..... 66
Elə baxma..... 67
Xəbərin yox..... 68
Dünya……..... 69
Bağışla ustad..... 70
Şəhidliyin uca zirvəsi..... 71
Başına papaq qoy..... 74
Ayın parası..... 75
İşıq ucu..... 76
Badə yerinə..... 77
Dolan başına sözlərin..... 78
Bəziləri hava çalmağı sevir..... 79
Başdaşımı yonacaq ustaya..... 81
Salam, sağ ol..... 82
Sınıq güzgü..... 83

Xıdırzində Baba pirində düşüncələr..... 84
Ağsaqqal yanında söz danışmırıq..... 85
Şaiq Vəliyə..... 86
Atam..... 87
Ay ana..... 88
Kişilər baş alıb gedir bu kənddən..... 90
Müzəffər kişinin üçüydü..... 92
Mənim şeirlərim..... 95
Aypara balta..... 96
Xalqın şairindən saray şairi..... 97
Yuxu..... 99
Bu payız qürbətdə bir ağac əkdim..... 101
Mən göylərdən gələn adam..... 102
Yalan adam..... 103
Mən şəhid sözlərə yas saxlayıram..... 104
Qadın…..... 105
Söz verdim..... 107
Mənimçün şərab-Sən!..... 108
Mənə şeir göndər..... 109
Sözünü gözə üfürür..... 110
Vaxt edib yazmadığım sözlü şeirlər..... 111
Alnında bir şeir yanır şam kimi..... 113
Qürbətin dadı..... 114
Bir gün gələcəksən..... 115
Düzələn deyilsən..... 116
Borclu borclunun sağlığını istər..... 118
Səsin gəlmir, ay qız niyə..... 119
Mən şeirlərimdə yaşayıram..... 120
Yağış yağır..... 121
Əlimin duzu..... 122
Sənin pəncərəndə göyərən ağac..... 123
Sevgidən danışma..... 124
Qadası..... 125

Baloğlan Cəlil İdrisi 1959-cu ildə Lənkəranın Zövlə kəndində anadan olub.

1987-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakultəsini bitirdikdən sonra Zövlə kənd orta məktəbində dil və ədəbiyyat müəllimi olaraq çalışıb.

Hazırda Ufa şəhərində inşaat işi ilə məşğuldur.

1982-ci ildən dövrü mətbuatda çap olunur. "Bənövşə ətri" (1996), "Körpə harayı" (1997), "İşıq ucu" (2006) kitablarının müəllifidir.

2013-cü ildə Türkiyədə "Qürbət türküləri", 2016-cı ildə ingilis dilində "Unudulmaz məktub" kitabları nəşr olunub.

2013-2015-ci illərdə rus dilində "Истоки" almanaxında şeirləri işıq üzü görüb. Şeirləri türk, başqırd, tatar, ingilis və rus dillərinə tərcümə edilərək qəzet və jurnallarda yayınlanıb.

20 ildən çoxdur ki, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Qürbəti bürüdü bir qara xəbər..... 127
Gəzmişik dünyanı yarımçıq, yarsız..... 128
Sən yenə..... 129
Mən səni ağladım, pərdələr məni..... 130
Bənövşəni..... 132
Allaha əmanət..... 133
Sənin şeirlər kitabını oxudum bu gecə..... 134
Mən az tanınan..... 135
Mən şeir yazmıram, şəkil çəkirəm..... 136
Sinəm açılmamış qala qapısı..... 137
Qatarda..... 138
Dünya oğruların əlində idi..... 139
Canım yaman ağrıyır..... 140
Əriyib gedərdi gecə şam kimi..... 142
Yalandan üzümə gülümsünüb get..... 143

Baloğlan Cəlil İdrisi

QÜRBƏTİN DADI

Çapa imzalanmış: 16.03.2018
Kağız formatı: 70x90 1/32
Həcmi: 18,5 ç.v.; Sifariş: 726; Sayı: 500

«VEKTOR» BEYNƏLXALQ NƏŞRLƏR EVİ
Ünvan: AZ1018. Bakı şəh, Zığ yolu, 20 q
tel: (+99470) 3007000; (+99412) 4471404
faks: (+99412) 3796003
e-mail: isgenderzadeh@rambler.ru
www.vektor.az